29 iyul 2022 №56 (1929) www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## Elm və Təhsil Nazirliyi yaradılıb

### AMEA-nın 30-dan çox elmi müəssisəsi yeni nazirliyin, 3 muzeyi isə Mədəniyyət Nazirliyinin tabeliyinə verilib



Prezident İlham Əliyev iyulun 28-də "Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Fərman imzalayıb.

Fərmana əsasən, Təhsil Nazirliyi bundan sonra Elm və Təhsil Nazirliyi adlandırılacaq. Elm sahəsində dövlət siyasətinin və tənzimlənmənin həyata keçirilməsi, elmi müəssisə və təşkilatların elmi fəaliyyətinin əlaqələndirilməsi və istiqamətləndirilməsi ilə bağlı səlahiyyətlər Elm və Təhsil Nazirliyinə həvalə edilir.

Nazirliyin yanında Elm və Ali Təhsil üzrə Dövlət Agentliyi və Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyi yaradılır.

Fərmana əsasən, Azərbaycan Milli Elmlər Akademiyasının Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin tabeliyinə verilən elmi müəssisə və təşkilatlarının, habelə digər qurumlarının siyahısı təsdiq edilib. Siyahıya AMEA-nın Fizika-Riyaziyyat və Texnika Elmləri Bölməsi, Kimya Elmləri Bölməsi, Yer Elmləri Bölməsi və Biologiya və Tibb Elmləri Bölməsi, habelə akademiyanın Naxçıvan və Gəncə bölmələri üzrə ümumilikdə 30-dan çox elmi müəssisəsi – institutlar, elmi istehsalat birlikləri və s. daxildir.

davamı səh. 2-də

## Bu kino ki var... – həm qəliz işdir, həm də vacib

### Azərbaycan kinosunun builki bayramı nə ilə yadda qalacaq?

2 avqust Azərbaycanda kino işçiləri üçün əlamətdar tarix, peşə bayramıdır. 1898-ci il avqustun 2-də fransız fotoqraf Aleksandr Mişon lentə aldığı "Bibiheybətdə neft fontanı yanğını", "Əlahəzrət Buxara əmirinin yolasalma mərasimi", "Qafqaz rəqsi" xronikal sənədli və "İlişdin" adlı bədii süjetlərin müstəqil nümayişini təşkil edib.

Prezident Heydər Əliyevin 18 dekabr 2000-ci il tarixli sərəncamı ilə avqustun 2-si ölkəmizdə kino işçilərinin peşə bayramı – Azərbaycan Kinosu Günü elan olunub.

Bəs builki kino bayramımız hansı tədbirlərlə əlamətdar olacaq?

Cəfər Cabbarlı adına "Azərbaycanfilm" Kinostudiyası avqustun 1-də "Azərbaycan Kinosu Günü" adlı tədbir təşkil edəcək. Həmin gün kinostudiyanın yeni loqo və saytının təqdimatı keçiriləcək. Eyni zamanda kinostudiyasının 100 illiyi (2023) münasibətilə elan olunan Qarabağ mövzusunda ssenari müsabiqəsi qaliblərinin adları açıqlanacaq, mükafatlandırma mərasimi olacaq. Bundan əlavə, tədbirdə "Azərbaycanfilm"in rəhbərliyi tərəfindən qarşıdan gələn 100 illik yubileylə bağlı tədbirlər planı haqqında da ictimaiyyətə məlumat veriləcək.



Avqustun 1-də həmçinin Azərbaycan Dövlət Film Fondunun həyətində Milli Kino Günü münasibətilə sərgi keçiriləcək. Sərgi Cəfər Cabbarlı adına "Azərbaycanfilm" Kinostudiyası və Dövlət Film Fondunun birgə təşkilatçılığı ilə reallaşacaq.

davamı səh. 2-də

## Türk ruhunun söz bayrağı

Əhməd Cavad ömrünü, canını, bütün varlığını türkçülük və turançılıq ideyalarına həsr edib. Düşmənləri ideya və təfəkküründən daim təlaş keçirdikləri üçün onun məzarının olmasına belə imkan verməyiblər. Bütün bunlara baxmayaraq, Türkiyə və Azərbaycanın müstəqilliyi yolunda yorulmaz fəaliyyət göstərən istiqlal şairimizin əziz xatirəsi on milyonlarla insanın qəlbində yaşayır. Əhməd Cavad vətənə, torpağa, Azərbaycan-Türkiyə qardaşlığına, bayraqlarımıza ən çox şeir həsr edən poeziya sərrafı kimi əbədi həyat qazanıb.



Bu fikirlər iyulun 27-də Ankaradakı Azərbaycan Evinin "Şuşa" konfrans salonunda "Əhməd Cavad – türk ruhunun söz bayrağı" adlı kitabın təqdimatında vurğulanıb.

Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva və fəlsəfə üzrə fəlsəfə doktoru Faiq Ələkbərlinin həmmüəllifliyi ilə Türkiyə türkcəsində nəşr olunan kitabda böyük istiqlal şairinin həyat və fəaliyyəti barədə türkdilli ictimaiyyətə müfəssəl məlumat verilir.

Təqdimat mərasimi Milli Məclisin Mədəniyyət komitəsi, Azərbaycanın Türkiyədəki Səfirliyi, Azərbaycan Mədəniyyət Nazirliyi, Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi (TİKA) və Türkiyə-Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondunun (TADƏHF) birgə təşkilatçılığı ilə keçirilib.

davamı səh. 2-də

## Mədəniyyət Nazirliyində məşhur kinorejissorla görüş

Mədəniyyət naziri Anar Kərimov iyulun 27-də dünya şöhrətli rejissor Timur Bekmambetovu qəbul edib.

Görüşdə Azərbaycan kino sənayesinin inkişafı və perspektivləri, mümkün birgə layihələrin həyata keçirilməsi, o cümlədən Azərbaycanda animasiya filmləri məktəbinin yaradılması ətrafında fikir mübadiləsi aparılıb.

səh. 2

## CNN-lə gələcək əməkdaşlıq nəzərdən keçirilib

Mədəniyyət Nazirliyinin əməkdaşları ABŞ-ın dünyaca məşhur CNN telekanalının London bürosunda qonaq olub, kanalın fəaliyyəti ilə tanışlıq imkanı qazanıblar.

səh. 3

## "Min bir gecə" yenidən Sankt-Peterburq səhnəsində

Sankt-Peterburqun Mariinski Teatrının yeni səhnəsində (Mariinski-2) dünya şöhrətli Azərbaycan bəstəkarı, SSRİ Xalq artisti Fikrət Əmirovun "Min bir gecə" baleti nümayiş olunacaq.

Bu il 100 illik yubileyi qeyd olunan dahi bəstəkarın dünyanın məşhur səhnələrinin bəzəyinə çevrilən "Min bir gecə" baleti 30 və 31 iyul tarixlərində, gündə iki seans olmaqla təqdim ediləcək. Nümayişlər Primorski səhnəsi (Vladivostok şəhəri) balet truppasının Sankt-Peterburqa qastrol səfəri çərçivəsində gerçəkləşəcək.

Tamaşanın quruluşçu rəssamı Mariinski Teatrı Primorski səhnəsinin baş xoreoqrafı, Rusiyanın Əməkdar incəsənət xadimi həmyerlimiz Eldar Əliyevdir.



Tamaşanın musiqi rəhbəri Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının baş dirijoru, Əməkdar artist, beynəlxalq müsabiqələr laureatı Əyyub Quliyevdir. Səhnə əsərini Mariinski Teatrının Simfonik Orkestri müşayiət edəcək.

Xatırladaq ki, bu ilin 17-18 və 22-23 yanvar tarixlərində Mariinski Teatrının yeni səhnəsində "Min bir gecə" baletinin nümayişi gerçəkləşmişdi. Mayın 31-də isə məşhur sənət nümunəsi yenə də Eldar Əliyevin quruluşunda Sofiya Opera və Balet Teatrında (Bolqarıstan) nümayiş olunmuşdu.

## Ana dilimizin və əlifbamızın bayramı




1 avqust Azərbaycan Əlifbası və Azərbaycan Dili Günüdür. Prezident Heydər Əliyevin 18 iyun 2001-ci il tarixdə imzaladığı fərmana əsasən, həmin il avqustun 1-də ölkə ərazisində bütün idarə və təşkilatlar, Azərbaycan dilində nəşrlər latın qrafikalı əlifbaya keçib. Ölkəmiz müstəqilliyini bərpa edəndən sonra, 1991-ci ilin dekabrında Azərbaycanda latın qrafikalı əlifbaya keçid barədə qərar qəbul edilsə də, onun faktiki icrası illərlə uzanmışdı.

On ilə yaxın davam edən latın qrafikalı Azərbaycan əlifbasına keçid 2001-ci ilin 1 avqustunda başa çatdı. Bu, Azərbaycanın ictimai-siyasi həyatında, yazı mədəniyyətimizin tarixində mühüm hadisə idi. Prezident Heydər Əliyevin 2001-ci il 9 avqust tarixli fərmanı ilə 1 avqust "Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü" elan edildi.

## Vətən fədailəri unudulmur

Lənkəran şəhərinin Şağlakücə kəndində Vətən müharibəsi şəhidi Ayxan Qurbanzadənin xatirəsinə inşa edilən bulaq kompleksinin açılışı olub.




Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşovun çıxışından sonra məktəblilərin ifasında şəhidlərimizə həsr edilən şeirlər səslləndirilib, musiqilər ifa olunub.

Qeyd edək ki, Ayxan Qurbanzadə ölümündən sonra ölkə başçısının müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Cəsur döyüşçü", "Füzulinin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

davamı səh. 4-də

## Keçmiş və gələcək bəşəriyyətin şahidi

Təbrizdə dünyaya göz açan Reza ilk dəfə atasına məxsus fotokameranı əlinə götürəndə hələ 14 yaşı tamam olmamışdı. 1979-cu ildə İranda baş verən xalq hərəkatını öz fotokamerasının yaddaşına köçürmək istəyib. Həmin vaxtdan o, fotojurnalist kimi tanınmağa başlayıb. 1981-ci ildə Fransaya köçüb. Dünyanın mədəniyyət mərkəzlərindən olan Paris Şərq mühitində böyümüş fotoqraf üçün yeni bir aləm açıb...




İyulun 26-da Mədəniyyət Nazirliyinin təşkilatçılığı, Heydər Əliyev Fondu və Heydər Əliyev Mərkəzinin dəstəyi ilə dünya şöhrətli fotoqraf Reza Deqatinin 70 illik yubileyinə həsr olunmuş tədbir keçirilib.

səh. 3

## "Kino rəssamı filmi fəzada görməlidir..."



səh. 5

## Sentyabrda Bakıda V "Animafilm" Beynəlxalq Animasiya Festivalı keçiriləcək

səh. 2

## Çexovun "Təklif"i DOST-un inklüziv səhnəsində



səh. 5

# Elm və Təhsil Nazirliyi yaradılıb

əvvəli səh. 1-də

AMEA-nın Milli Azərbaycan Tarixi Muzeyi, Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi və Hüseyn Cavidin Ev-Muzeyi əmlakları ilə birlikdə Mədəniyyət Nazirliyinin tabeliyinə verilib.

Fərmana əsasən, Azərbaycan Respublikasının Nazirlər Kabineti üç ay müddətində Elm və Təhsil Nazirliyinin yeni əsasnaməsinin və strukturunun, habelə yeni yaradılan Agentliklərin əsasnamələrinin layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etməli, Elm və Təhsil Nazirliyinin Aparatının və strukturuna daxil olan qurumların işçilərinin ümumi say həddini, habelə nazirliyin strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısını təsdiq edərək bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat verməlidir.

Elm və Təhsil Nazirliyi tabeliyinə verilən qurumların sayının optimallaşdırılması və fəaliyyətinin səmərəliliyinin artırılması istiqamətində təkliflərini altı ay müddətində hazırlayıb Nazirlər Kabinetinə təqdim etməlidir.

Fərmana əsasən, Azərbaycan Milli Elmlər Akademiyası Ümumi Yığıncağında qəbul edilmiş yeni nizamnaməsini üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etməlidir.

Həmçinin Mədəniyyət Nazirliyinə fərmandan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görmək tapşırılıb.

# AMEA-nın tabeliyində hansı müəssisə və təşkilatlar qalacaq?

Prezident İlham Əliyevin iyulun 28-də imzaladığı sərəncamla Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Fizika-Riyaziyyat və Texnika Elmləri, Kimya Elmləri, Yer Elmləri, Biologiya və Tibb Elmləri bölmələri, habelə Naxçıvan və Gəncə bölmələri üzrə 37 müəssisə - institutlar, elmi istehsalat birliləri və s. yeni yaradılan Elm və Təhsil Nazirliyinin tabeliyinə verilib.

Bu siyahıya AMEA Humanitar Elmlər Bölməsi (Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, Nəsimi adına Dilçilik İnstitutu, Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu, Memarlıq və İncəsənət İnstitutu, Folklor İnstitutu) və İctimai Elmlər Bölməsi (Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutu, Akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutu, Abbasqulu Ağa Bakıxanov adına Tarix İnstitutu, Fəlsəfə və Sosiologiya İnstitutu, Qafqazşünaslıq İnstitutu, Elm Tarixi İnstitutu) üzrə institutlar daxil deyil.

Bundan əlavə, Mərkəzi Elmi Kitabxana, "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzi, Respublika Seysmoloji Xidmət Mərkəzi, eləcə də AMEA-nın Naxçıvan və Gəncə bölmələri üzrə humanitar və ictimai elmlər istiqamətlərində institut və digər müəssisələr, Şəki Regional Elmi Mərkəzi AMEA-nın tabeliyində qalıb.

# Şuşada "Diaspor Gənclərinin Yay Düşərgəsi"

## Pənahəli xanın nəslindən gənc də iştirak edəcək

Diasporla İş üzrə Dövlət Komitəsi və Heydər Əliyev Fondunun birgə təşkilatçılığı ilə 2022-ci ilin 2-8 avqust tarixində Şuşada "Diaspor Gənclərinin III Yay Düşərgəsi" təşkil ediləcək. Layihənin tərəfdaşları Gənclər və İdman Nazirliyi, Gənclər Fondu, Dövlət Turizm Agentliyi və Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsidir.




Şuşada keçiriləcək Diaspor Gənclərinin III Yay Düşərgəsində Qarabağ xanlığının qurucusu Pənahəli xanın nəslindən olan gənc də iştirak edəcək. Bu barədə Diasporla İş üzrə Dövlət Komitəsindən məlumat verilib.

İspaniyada doğulub böyüyən Məhəmmədəli Əkbərov iştirak etmək üçün vətənə gəlib. O, "Diaspor TV"-nin "Vətən uzaqda deyil" proqramının qonağı olub, ulu babaları və mənsub olduğu nəslin şəcərəsi, eyni zamanda ailələrində həmin şəcərəni əks etdirən sənədlərin olması barədə danışıb.

Qeyd edək ki, Prezident İlham Əliyev hər zaman xaricdə yaşayan azərbaycanlıları tarixi Vətənlə əlaqələrini kəsməməyə, vaxtaşırı Azərbaycana səfər etməyə çağırıb. 2022-ci il aprelin 22-23-də Şuşada keçirilən Dünya Azərbaycanlılarının V Qurultayında da dövlət başçısı dünya azərbaycanlılarını ana dilini unutmamağa, Azərbaycan tarixini və mədəniyyətini öyrənməyə, Azərbaycan həqiqətlərini dost xalqların diasporları ilə birlikdə təbliğ etməyə çağırıb. "Diaspor Gənclərinin Yay Düşərgəsi" layihəsi də bu məqsədə xidmət edir.

# Azərbaycan və İsrail kinematoqrafçıları birgə film çəkir

Oğuz rayonunda yaşayan dağ yəhudiləri ilə bağlı yeni sənədli film çəkilir. Azərbaycan və İsrail kinematoqrafçılarının birgə işi olan "Oğuz yəhudiləri" adlı filmin ssenari müəllifi və rejissoru Rüfət Əsədov, İsrail tərəfdən prodüseri əslən Azərbaycandan olan diaspor fəalı və şair Şaul Siman-Tovdur.



Filmin çəkilişləri Azərbaycanda və İsraildə aparılacaq. Ekran əsərinin qəhrəmanı İsraildə yaşayan, əslən Oğuz rayonundan olan həmvətənimiz ravvin Şmuel Simantovdur. Filmdə Oğuz rayonunda məskunlaşmış dağ yəhudilərinin tarixi, həyat tərzi Şmuel Simantovun dilindən nəql edilir.

Rejissor Rüfət Əsədov dağ yəhudiləri ilə bağlı indiyədək beş sənədli film çəkib.

# Mədəniyyət Nazirliyində məşhur kinorejissorla görüş

## Azərbaycan kino sənayesinin inkişafına dair fikir mübadiləsi aparılıb

Azərbaycan Respublikasının mədəniyyət naziri Anar Kərimov iyulun 27-də dünya şöhrətli rejissor Timur Bekmambetovu qəbul edib.

Görüşdə Azərbaycan kino sənayesinin inkişafı və perspektivləri, mümkün birgə layihələrin həyata keçirilməsi, o cümlədən Azərbaycanda animasiya filmləri məktəbinin yaradılması ətrafında fikir mübadiləsi aparılıb.

Timur Bekmambetov nazir Anar Kərimova səmimi qəbula görə təşəkkürünü bildirib.

Qeyd edək ki, qazax əsilli Timur Bekmambetov Rusiyada, eləcə də Hollivudda bir sıra məşhur filmlərin rejissoru və prodüseridir.

Ona Rusiyada şöhrət gətirən ilk ekran işi 2004-cü ildə çəkdiyi "Gecə gözətçiləri" ("Ночной дозор") filmi olub. 2006-cı ildə



onun davamı kimi "Gündüz gözətçiləri" ekranlara çıxıb və həmin il Rusiyada kassa yığımına görə birinci film olub.

2005-ci ildə Hollivuda dəvət alan Timur Bekmambetov "Fox" Kinostudiyasında, "Universal Pictures"də bir sıra layihələr həyata keçirib. Hollivudda "Xüsusilə təhlükəlidir", "Prezident Linkoln: vampirlər ovçusu", "Ben Qur" və s. filmləri çəkib. Son illər özünün layihəsi skrinlayf (screenlife) formatında filmlər (bütün hadisələr kompüter və ya smartfon ekranında cərəyan edir) hazırlayır.

# Türk ruhunun söz bayrağı

## Ankarada Əhməd Cavad haqqında kitabın təqdimatı keçirilib

əvvəli səh. 1-də

Əvvəlcə şəhidlərimizin əziz xatirəsi ehtiramla yad edilib. Sonra Azərbaycanın və Türkiyənin dövlət himnləri səsləndirilib.

İğdır Universitetinin rektoru Mehmet Hakkı Alma, Azərbaycanda fəaliyyət göstərən "Unity Company" şirkətinin təsisçisi Fikrət Əliyev və başqaları çıxış ediblər.



Mərasimdə Azərbaycanın Türkiyədəki səfiri Rəşad Məmmədov, Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva, TADƏHF rəhbəri Aygün Attar, Ankara Universitetinin rektoru Necdet Ünüvar, Türk dünyasının birliyi, tarixi şəxsiyyətlərimizin tanınması, ortaq türk bədii ədəbiyyatının və poeziya aləminin yaranması istiqamətində ümummilli lider Heydər Əliyevin atdığı addımlardan bəhs edən çıxışçılar bildiriblər ki, Prezident İlham Əliyev bu məqsədyönlü siyasəti uğurla davam etdirir. Böyük istiqlal şairi Əhməd Cavadın 130 illiyinin qeyd edilməsi haqqında dövlət başçısının sərəncamı da




bu istiqamətdə atılan addımlardan biridir.

Çıxışlarda Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun qazandığı qalibiyyətdən də söz açılıb. Əminliklə ifadə olunub ki, Qa-




rabağ Zəfəri ömrünü Azərbaycan və Türkiyənin müstəqilliyi, azadlığı, bütövlüyü yolunda fəda edən Əhməd Cavad kimi böyük insanların şəxsiyyətinə ən böyük ərməğandır.

Çıxışçılar təqdim olunan kitab barədə fikirlərini də bölüşüblər.

Professor Necati Demir "Dədə Qorqud dastanı" kitabından bir neçə nüsxəni səfir Rəşad Məmmədova təqdim edib.

Qənirə Paşayeva Xalq rəssamı Sakit Məmmədovun "Türk dünyası qadınları" silsiləsindən "Azərbaycan xanımı" tablosunu Azərbaycan Evinə hədiyyə edib.

Mərasim TADƏHF-nin musiqi qrupunun ifasında bədii hissə ilə davam edib.

# Ankarada Əli Kərimin "Seçilmiş şeirlər"i təqdim olunub

Türkiyədə fəaliyyət göstərən Avrasiya Yazarlar Birliyi tərəfindən Azərbaycan poeziyasının görkəmli nümayəndəsi Əli Kərimin "Seçilmiş şeirlər" kitabı nəşr edilib. İyulun 28-də Ankaradakı Azərbaycan Evinin "Şuşa" konfrans salonunda kitabın təqdimatı keçirilib.

Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayevanın ön söz yazdığı kitab "Bengü" nəşriyyatında çap edilib.

Təqdimatda Türkiyə-Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondunun (TADƏHF) rəhbəri Aygün Attar, millət vəkili Qənirə Paşayeva, Avrasiya



Yazarlar Birliyinin sədri, yazıçı-publisist Yaqub Öməroğlu və başqaları kitab barədə fikirlərini bölüşüblər. Diqqətə çatdırılıb ki, nəşrin hazırlanmasında məqsəd Azərbaycan poeziyasında xüsusi yaradıcılıq xətti ilə seçilən şair Əli Kərimi Türkiyə ictimaiyyətinə daha yaxından tanıtmaqdır.

Aygün Attar qeyd edib ki, "Şuşa" konfrans salonunda davamlı olaraq belə təqdimatların keçirilməsi Azərbaycan ədəbiyyatının təbliği deməkdir.

Qənirə Paşayeva çıxışında Türk dünyasının görkəmli şəxsiyyətlərinin tanıdılması istiqamətində görülən işlərin əhəmiyyətindən bəhs edərək bildirib ki, türk xalqlarının qələm sahibləri bir-birinin tarixindən, mədəniyyətindən yazdıqca bu işlərin təsiri və faydası daha da çoxalacaq.

Əli Kərimin "Seçilmiş şeirlər"inin nəşrini Azərbaycan poeziyasının Türkiyədə daha geniş tanınması üçün yeni addım kimi dəyərləndirən çıxışçılar kitaba görə Avrasiya Yazarlar Birliyinin rəhbəri Yaqub Ömərоğluna minnətdarlıqlarını ifadə ediblər.

# Bu kino ki var... – həm qəliz işdir, həm də vacib

əvvəli səh. 1-də

Sərgidə kinomuzun səssiz mərhələsindən başlamış sovetlər dönəmi bitənə qədər film çəkilişlərində istifadə edilmiş texnika və avadanlıqlar nümayiş olunacaq. Təqdim ediləcək eksponatlar "Azərbaycanfilm" və Film Fondunda qorunan avadanlıqlardır.

Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqı (ARKİ) da Milli Kino Gününə xüsusi hazırlaşıb. Avqustun 2-də təşkil ediləcək bayram tədbirində Milli Kino Mükafatı təqdim ediləcək. Həm gənc, həm də yaşlı nəsil kinematoqrafçılara mükafatlar təqdim olunacaq. Yubileyi olan kino xadimləri, il ərzində bu sahədə uğur qazananlar da diqqətdən kənarda qalmayacaq. Qeyd edək ki, builki Milli Kino Mükafatına 75 illik yubileyini qeyd edən Xalq rəssamı Rafiq Nəsirov layiq görülüb.

Əvvəlki illərdən fərqli olaraq ARKİ bu il media nümayəndələrini də yaddan çıxarmayıb. Qurumun mətbuat xidmətindən bildirilib ki, həmin gün jurnalistlər də mükafatlandırılacaq.

Azərbaycan Kinematoqrafçılar İttifaqı (AKİ) isə Milli Kino Günündə ənənəvi olaraq özünün üç nominasiyada kino mükafatını sahiblərinə təqdim edəcək. İyulun 28-də AKİ 2022-ci il üçün mükafatçıları elan edib.

"Mən qəhrəman axtarıram" sənədli filminin uğurlu rejissor həllinə görə" İlkin Yusif, "Azərbaycan animasiyasının beynəlxalq əlaqələrinin inkişafında xidmətlərinə görə" Rəşid Ağamalıyev, "Müstəqil kinonun inkişafında və bölgələrdə kino mühitinin canlandırılmasında xidmətlərinə görə" İntiqam Hacılı diplom və pul mükafatına layiq görülüblər.



Avqustun 1-də AKİ-nin bu ilin fevralında elan etdiyi "Mən qadınam" qısametrajlı ssenari müsabiqəsinin qalibləri də elan olunacaq.

**Lalə Azəri**

# V "Animafilm" festivalına 75 film qəbul edilib

Sentyabrın 7-dən 11-dək Bakıda V "Animafilm" Beynəlxalq Animasiya Festivalı keçiriləcək.

Festivalın seçim komissiyası müsabiqə proqramına daxil edilmiş filmlərin siyahısını elan edib. Siyahı festivalın www.animafilm.az saytında dərc olunub.




Builki festivala 50 ölkədən 230 film daxil olub. Seçim komissiyası müsabiqəyə 29 ölkədən 75 film qəbul edib. Filmlər 1 yerli və 6 beynəlxalq kateqoriya üzrə yarışacaq. Bundan başqa, bu il "Tamaşaçı seçimi" müsabiqəsi də elan olunur. "Tamaşaçı seçimi"nin qalibi film nümayişləri zamanı tamaşaçı səsverməsinin nəticələri üzrə müəyyənləşdiriləcək.

Xatırladaq ki, Mədəniyyət Nazirliyinin dəstəyi ilə keçiriləcək builki festival "İqlim dəyişikliyi" mövzusuna həsr olunub. Festival çərçivəsində iqlim dəyişikliyi mövzusunda filmlərin nümayişi və müzakirəsi ilə yanaşı, geniş xeyriyyə aksiyası da keçiriləcək. Festivalın bilet satışından əldə olunan vəsait ölkə ərazisində ağac əkilməsinə sərf ediləcək.

# Keçmiş və gələcək bəşəriyyətin şahidi

## Dünya şöhrətli fotoqraf Reza Deqatinin 70 illik yubileyi qeyd edilib

Xəbər verdiyimiz kimi, dünya şöhrətli fotoqraf Reza Deqati 70 illik yubileyi ərəfəsində Prezident İlham Əliyevin müvafiq sərəncamına əsasən "Dostluq" ordeni ilə təltif edilib. Azərbaycan əsilli məşhur fotoreportyor ölkəmizlə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında çoxillik səmərəli fəaliyyətinə görə təltif edilib.






İyulun 26-da Mədəniyyət Nazirliyinin təşkilatçılığı, Heydər Əliyev Fondu və Heydər Əliyev Mərkəzinin dəstəyi ilə dünya şöhrətli fotoqraf Reza Deqatinin 70 illik yubileyinə həsr olunmuş "Keçmiş və gələcək bəşəriyyətin şahidi" adlı tədbir keçirilib.

Heydər Əliyev Mərkəzində keçirilən tədbirdə əvvəlcə Reza Deqatinin həyat və yaradıcılığına həsr olunmuş videoçarx nümayiş olunub.

Yubiley tədbirində Reza Deqatinin fəaliyyətindən, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması üçün gördüyü işlərdən, o cümlədən xaricdə və Azərbaycanda təşkil edilən sərgilərindən söhbət açılıb.

Mədəniyyət naziri Anar Kərimov çıxış edərək Reza Deqatinin 70 illik yubileyinin qeyd olunmasını əlamətdar hadisə kimi dəyərləndirib. Nazir deyib ki, Reza Deqatinin fotoqraf kimi fəaliyyət göstərdiyi 55 il ərzində dünyanın müxtəlif ölkələrində yüzlərlə sərgisi keçirilib. Onun ən böyük əsəri isə elə öz həyatıdır. Reza Deqati dünyanın ən qaynar nöqtələrində olan insandır və gördüyü hadisələri fotoların dili ilə insanlara çatdırır.

Anar Kərimovun sözlərinə görə, Reza Deqatinin əsərlərinin üç mesajı var: sülh, humanizm və yaddaş.

Mədəniyyət naziri Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra torpaqlarımızın işğalı, xalqımıza qarşı qırğınlar törədilən zaman Reza Deqatinin xaricdə işini buraxaraq ölkəmizə gəldiyini vurğulayıb. Bildirib ki, Qarabağ həqiqətlərinin dünyaya çatdırılmasında Reza Deqatinin xüsusi xidmətləri var. O, 20 Yanvar hadisələrini, Xocalı soyqırımının şahidlərini, eləcə də şəhidləri fotolara köçürüb. Onun çəkdiyi fotolarda işğal dövründə Qarabağda ermənilər tərəfindən məhv edilmiş evlər, abidələr və tarixi binalar da əksini tapıb. 44 günlük Vətən müharibəsi zamanı da Reza Deqati Azərbaycanın haqq səsini dünyaya çatdırmaq üçün fədakarlıq göstərib: "Bildiyiniz kimi, Reza Deqati bir çox beynəlxalq mükafatlara layiq görülüb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamına əsasən Reza Deqati "Dostluq" ordeni ilə təltif edilib. Bu əlamətdar hadisə




ilə bağlı mən Reza Deqatini təbrik edirəm".

Tədbirdə çıxış edən Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva Reza Deqatinin öz sahəsində sözünü deyən peşəkar fotojurnalist olduğunu vurğulayıb: "O, dünyanın ən qaynar nöqtələrindən fotolar çəkərək həqiqətləri dünya ictimaiyyətinə çatdırıb. Qarabağ hadisələrində Azərbaycan gerçəklərini dünyaya cəsurluqla nümayiş etdirib, Vətən borcunu vicdanla yerinə yetirib. Onun fotoşəkillərinə baxarkən insanlar həm təsirlənir, həm də heyranlıq duyur".

Heydər Əliyev Fondu tərəfindən müxtəlif ölkələrdə keçirilmiş bir çox tədbirlərdə, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə "Xocalıya ədalət!" kampaniyasının layihələrində Reza Deqatinin yaxından iştirak etdiyini deyən Günay Əfəndiyeva bildirib ki, o, Azərbaycan həqiqətləri ilə yanaşı, tariximizi, mədəniyyətimizi, adət-ənənələrimizi beynəlxalq müstəvidə nümayiş etdirir.

Sonra Günay Əfəndiyeva Xalq rəssamı Arif Hüseynovun "Xarıbülbül" adlı tablosunu, eləcə də Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu adından təbrik məktubunu Reza Deqatiyə təqdim edib.

Azərbaycan Rəssamlar İttifaqının sədri, Xalq rəssamı Fərhad Xəlilov, "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-nin əməkdaşı Elnar Məmmədli, Alban-udi xristian dini icmasının sədr müavini Rafik Danakari çıxış edərək yubilyara təbriklərini çatdırıblar.

Qeyd olunub ki, Təbrizdə dünyaya göz açan Reza ilk dəfə atasına məxsus fotokameranı əlinə götürəndə hələ 14 yaşı tamam olmamışdı. 1979-cu ildə İranda baş verən xalq hərəkatını öz fotokamerasının yaddaşına köçürmək istəyib. Həmin vaxtdan o, fotojurnalist kimi tanınmağa başlayıb. 1981-ci ildə Fransaya köçüb. Dünyanın mədəniyyət mərkəzlərindən olan Paris Şərq mühitində böyümüş fotoqraf üçün yeni bir aləm açıb.

Fransada bir müddət BMT-nin humanitar proqram üzrə məsləhətçisi vəzifəsində çalışan Reza Deqati 1990-cı ildən həyatını Amerikada nəşr edilən məşhur "National Geographic" jurnalı ilə bağlayıb. Jurnalın sifarişlərini yerinə yetirərək müxtəlif ölkələrdə olub. Onun səyahət coğrafiyasının xəritəsi geniş və zəngindir. Bosfordan Çin səddinə, Filippindən Mərkəzi Asiyaya, Livandan Əfqanıstana, Ruandadan Sarayevoya, Yəməndən Bosniyaya, Anqoladan Qafqaza səfər marşrutları, müxtəlif ölkələrlə, müxtəlif insanlarla tanışlıq onun həyat tarixçəsinə yeni-yeni səhifələr yazıb. 115-dən çox ölkədə olan Reza dünyanın tanınmış fotojurnalisti kimi çoxdan şöhrət qazanıb.

Çıxışlarda Reza Deqatinin yorulmadan Azərbaycan həqiqətlərini dünyaya çatdırdığı, fədakarlığı vurğulanıb.

Tədbirdə fransız sənət kuratoru və yazıçısı Pierre Bon-Giovanninin videomüraciəti yayımlanıb.

Sonda çıxış edən Reza Deqati "Dostluq" ordeni ilə təltif olunmasına görə Azərbaycan Prezidentinə minnətdarlığını bildirib. O, yubiley tədbirini həyatının unudulmaz günü kimi dəyərləndirib və mərasimin təşkilində əməyi olan hər kəsə təşəkkürünü bildirib.

Tədbir bədii proqramla davam edib.

# Mədəniyyət Nazirliyinin CNN kanalı ilə gələcək əməkdaşlığı nəzərdən keçirilib

Mədəniyyət Nazirliyinin əməkdaşları ABŞ-ın dünyaca məşhur CNN telekanalının London bürosunda qonaq olub, kanalın fəaliyyəti ilə tanışlıq imkanı qazanıblar.






CNN telekanalının baş Avropa ofisi Londonda yerləşir. London bürosunun fəaliyyəti kanalın ümumilikdə Avropa, Yaxın Şərq və Afrika üzrə informasiya məhsullarını əhatə edir.

Mədəniyyət Nazirliyi Media və kommunikasiya şöbəsinin müdiri Məryəm Qafarzadə və şöbənin baş məsləhətçisi Elnarə Kərimova "CNN London"un rəhbərliyi ilə görüşüblər. Görüş zamanı diqqətə çatdırılıb ki, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və CNN illərdir əməkdaşlıq edir, ölkəmizlə bağlı çoxsaylı süjetlər yayımlanıb.

Nazirliyin nümayəndələri kanalın işi, beynəlxalq layihələri ilə tanış olublar. Həmçinin çəkiliş prosesi, məşhur "CNN Breaking News"un canlı yayımlarını, montaj və hazırlıq işlərinin necə getdiyini, redaksiya işlərinin necə aparıldığını, strategiyaların necə hazırlandığını izləmək imkanı qazanıblar. Rəqəmsal və yaradıcı həllər üzrə fikir mübadiləsi aparıblar.

Görüş zamanı Azərbaycan tərəfindən ölkəmizin mədəniyyəti ilə bağlı məqalə hazırlanaraq telekanalın saytında yerləşdirilməsinə dair razılıq əldə edilib.

Həmçinin gələcək layihələrlə bağlı müzakirələr aparılıb.

Kanalın təmsilçiləri media sxemi, xəbər ötürmə, marketinqlə bağlı illər ərzində əldə etdiyi təcrübələrini də bölüşüblər.

Məryəm Qafarzadə kanalın fəaliyyəti ilə tanışlıq üçün yaradılan imkana və səmimi görüşə görə "CNN London"un rəhbərliyinə təşəkkür edərək, zəngin mədəniyyətimizin təbliği üçün yeni metodların tətbiqi və davamlı əməkdaşlığın perspektivlərindən söz açıb.

Qeyd edib ki, cari ildə telekanal Azərbaycanın mədəniyyət paytaxtı Şuşada keçirilən tədbirlər, eyni zamanda milli sərvətimiz olan muğam və xalça sənəti ilə bağlı videoçarxlar nümayiş etdirib.

Nümayəndə heyəti sonda şirkətin iş şəraiti və binası ilə yaxından tanış olub.

# Vətən müharibəsi haqqında serial "Bozdağ film" ilə birgə çəkiləcək

Xəbər verildiyi kimi, Azərbaycan və Türkiyə kinematoqrafçıları 44 günlük Vətən müharibəsi ilə bağlı birgə serial layihəsi üzərində işləyirlər. Serial Türkiyənin tanınmış "Bozdağ film" studiyası ilə birgə çəkiləcək.

Bu barədə mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev jurnalistlərə açıqlamasında deyib.

Elnur Əliyev qeyd edib ki, ekran əsərində türkiyəli və azərbaycanlı aktyorlar rol alacaq. Serialın ilkin olaraq səkkiz bölümdən ibarət olması nəzərdə tutulub. "Hazırlıq işləri tamamlanmaq üzrədir. Hadisələri qabaqlamaq istəmirəm, amma onu deyim ki, birinci bölümün bu il təqdimatı gözlənilir", – deyə Elnur Əliyev bildirib.

Qeyd edək ki, "Bozdağ film" Türkiyənin "Kuruluş Osman", "Destan", "Mehmetçik" və s. tarixi mövzuda məşhur seriallarının istehsalçısıdır. Studiyanın qurucusu Mehmet Bozdağ "Diriliş Ertuğrul" ve "Kuruluş Osman" seriallarının rejissorudur. Hazırda "Bozdağ film" təxminən 30 hektar ərazidə inşa edilən Türkiyənin ən böyük film platolarından birinə malikdir.

# Dövlət Xidmətinin təşəbbüsü ilə

## Vətəndaşlar mədəniyyət nümunələrini muzeylərə təqdim edirlər

Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin bölgələrdə mədəni irs nümunələrinin toplanması istiqamətində yeni təşəbbüs çərçivəsində vətəndaşlarda olan maddi mədəniyyət nümunələrinin muzeylərə təqdim edilməsi davam edir.



Dövlət Xidmətindən bildirilib ki, bu dəfə Cəlilabad rayonunun ayrı-ayrı kəndlərində aşkar olunmuş 45 ədəd maddi mədəniyyət nümunəsi rayonun Tarix-Diyarşünaslıq Muzeyinə təhvil verilib.

# İlin birinci yarısında muzeylərin nə qədər ziyarətçisi olub?

2022-ci ilin yarısını geridə qoyduq. Ötən dövrdə teatr və konsert müəssisələri, muzeylər və qalereyalar pandemiya məhdudiyyətlərinin aradan qaldırılması ilə normal fəaliyyətini bərpa etməyə çalışdılar.





COVID 19-dan əvvəl muzeylərin ziyarətçiləri arasında əcnəbi qonaqlar da bəlli bir yerə sahib olurdular. Lakin hələ də ölkələrin quru sərhədləri bağlı olduğundan turist axınında da müəyyən durğunluq hiss olunur. Bunu Mədəniyyət Nazirliyinin tabeliyində fəaliyyət göstərən bir neçə muzeydən aldığımız statistik məlumat da təsdiqlədi.

Ölkəmizin aparıcı muzeylərindən olan Azərbaycan Milli Xalça Muzeyinin mətbuat katibi Ülvinə Fərzəliyevanın sözlərinə görə, ilin birinci yarısında 30 minə yaxın ziyarətçiləri olub. Onlardan 12 mindən çoxu xarici ölkələrdən gələn qonaqlardır.

***

İlin I yarısında Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinə və onun filiallarına 5668 ziyarətçi gəlib. Muzeyin əsas binasını ziyarət edənlərdən 3253 nəfərdən 3116-sı yerli, 137-si isə xarici qonaq olub.

Muzeyin filialları – Niyazinin Mənzil-Muzeyi, Qara Qarayevin Ev-Muzeyi, Vaqif Mustafazadənin Ev-Muzeyi və Xalq çalğı alətləri daimi sərgisinə 2415 ziyarətçi baş çəkib. Onlardan 72-si xarici qonaqdır.

Musiqi Mədəniyyəti Dövlət Muzeyindən ilin ikinci yarısında keçiriləcək tədbirlər haqqında da məlumat aldıq. Direktor, Əməkdar mədəniyyət işçisi Alla Bayramova qeyd etdi ki, avqustun 17-də görkəmli müğənni və bəstəkar, SSRİ Xalq artisti Müslüm Maqomayevin 80, bir gün sonra isə böyük dirijor və bəstəkar, SSRİ Xalq artisti Niyazinin 110 illiyinə həsr olunmuş tədbirlər keçiriləcək. Sentyabr ayında Milli Musiqi Günü, Beynəlxalq Sülh Günü və Vətən müharibəsində həyatını itirənlərin Anım Günü münasibətilə müxtəlif tədbirlər təşkil ediləcək. Oktyabrda Beynəlxalq Musiqi Günü, Xalq artisti, tarzən Əhməd Bakıxanovun 130 illiyi, noyabrda Xalq artisti, bəstəkar Emin Sabitoğlunun 85 illiyi, Zəfər Günü münasibətilə konsert, Fikrət Əmirovun 100 illiyi, dekabrda isə "Unudulmayanlar" rubrikasında Xalq artistləri Şövkət Ələkbərova və Sara Qədimovanın 100 illik yubileyləri, həmçinin "Heydər Əliyev – müasir Azərbaycan dövlətinin əbədiyaşar memarı" adlı tədbirin keçirilməsi nəzərdə tutulur.

***

Azərbaycan İstiqlal Muzeyinin direktoru Sədi Mirseyibli bildirdi ki, ilin I yarısında muzeyə ümumilikdə 4630 ziyarətçi gəlib. Bunlardan 4330-u yerli vətəndaş, 300-ü isə xarici qonaqdır. Bu ilin əvvəlindən həyata keçirilən və "Şuşa İli"nə həsr olunan "Şuşa – Qarabağın dünəni, bu günü, sabahı", vətənpərvərliyin təbliği və Vətən müharibəsi şəhidlərinin xatirəsini yad etmək məqsədilə ötən ildən reallaşdırılan "Qəhrəmanlar can verir yurdu yaşatmaq üçün" adlı layihələr ilin sonuna qədər davam etdiriləcək. Bununla yanaşı, ötən əsrin 30-cu illər repressiya hadisələrinin 85 illiyi və repressiya qurbanlarından olan istiqlal şairi Əhməd Cavadın 130 illiyinə həsr olunmuş tədbirlərin keçirilməsi planlaşdırılır.

***

Azərbaycan Milli İncəsənət Muzeyi bu ilin altı ayında ən çox ziyarətçi (həm də xarici ölkələrdən) qəbul edən muzeylərdəndir. Yanvar-iyun aylarında muzeyi 15 767 nəfər ziyarət edib. Bunlardan 13 785-i yerli, 1982-si isə əcnəbi qonaqlardır.

Muzeyin Elmi-kütləvi işlər şöbəsinin müdiri Rəfiqə Quliyeva vurğuladı ki, sentyabr ayından başlayaraq "İncəsənətimizin qaynaqları. Əbədi simvollar, səyyar naxışlar", "İslam incəsənəti", "Mədəniyyətlərin dialoqu. Azərbaycan Şərq və Qərbin qovşağında", "Avropa ölkələrinin tətbiqi sənəti Milli İncəsənət Muzeyində" və "Qafqaz mövzusu rus rəssamlarının yaradıcılığında" adlı mühazirələr keçiriləcək. Həmçinin hər ay muzeydə uşaqlar üçün maarifləndirici, əyləncəli proqramlar, tədbirlər həyata keçirilir.

Muzeydə hazırda iki böyük sərgi davam edir. Bunlar "Mədəniyyətimizin incisi – Qarabağ" və "Həyata sevgi ilə: Mikayıl Abdullayev" sərgiləridir. "Həyata sevgi ilə" sərgisi yaxın zamanda sona çatacaq. "Mədəniyyətimizin incisi – Qarabağ" sərgisi isə ilin sonunadək davam edəcək.

**Nurəddin Məmmədli**

# Vətən fədailəri unudulmur

*əvvəli səh. 1-də*

Ağdaş RMİ Zərdab rayon MKS-nin 1 saylı şəhər kitabxana filialı və 1 saylı Diyarşünaslıq evinin birgə təşkilatçılığı ilə "Gənclər qürur yerimizdir" adlı Vətən müharibəsi qaziləri ilə görüş təşkil edilib.

***



Sumqayıt RMİ Abşeron rayon Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə Xırdalan şəhərindəki Heydər Əliyev Mərkəzində Vətən müharibəsi şəhidi Sahib Musayevin anım günü keçirilib. Tədbirdə şəhidin həyat və fəaliyyətini özündə əks etdirən sənədli film nümayiş olunub.

***

Şəki RMİ Şəki şəhər Heydər Əliyev Mərkəzində gənc yazar Sevindik Nəsiboğlunun şəhidlərimizə həsr etdiyi "Möhtəşəm Zəfərin nişanəsi" kitabının təqdimatı keçirilib. Şəki Şəhər İcra Hakimiyyəti və şəhər MKS-nin birgə təşkilatçılığı ilə keçirilən tədbirdə şəhid ailələrinin üzvləri, ziyalılar, təhsil və mədəniyyət işçiləri və digər qonaqlar iştirak ediblər. Kitabda torpaqlarımızın işğaldan azad edilməsi uğrunda canlarını qurban verən Vətən oğullarının döyüş yolundan, qəhrəmanlıqlarından bəhs olunur.

Qax şəhər Heydər Əliyev Mərkəzi və rayon Mədəniyyət Mərkəzinin birgə təşkilatçılığı ilə "Ölümsüzlüyə ucalanlar" devizi altında şəhid ailələri, qazilər və Vətən müharibəsi iştirakçıları ilə görüş keçirilib. Çıxış edənlər torpaqlarımızın azadlığı uğrunda şəhid olmuş igidlərin əziz xatirəsinə hörmət və ehtiramlarını bildiriblər.

***



Vətən müharibəsində şəhidlik zirvəsinə ucalan qəhrəman oğullardan biri də Zaqatala rayonunun Aşağı Çardaxlar kəndindən olan Nail Abakarovdur. İyulun 24-də şəhidin doğum günü ilə əlaqədar rayon rəsmiləri, ictimaiyyət nümayəndələri, kənd sakinləri Nail Abakarovun məzarını ziyarət edib, xatirəsinə ehtiramlarını bildiriblər. Məktəblilər şəhidlərə, Vətənə həsr olunmuş şeirlər söyləyiblər.

Nail Abakarov 2020-ci il oktyabrın 2-də Suqovuşan istiqamətində gedən döyüşlərdə şəhid olub, doğma kəndində torpağa tapşırılıb. Ölümündən sonra "Vətən uğrunda" və "Laçının azad olunmasına görə" medalları ilə təltif edilib.

# "Cənubda kino günləri"

Masallı RMİ Nizami Gəncəvi adına Masallı rayon Mədəniyyət Mərkəzində Azərbaycan Kinematoqrafçılar İttifaqının "Cənubda kino günləri" layihəsi çərçivəsində "Titrəmə" (rejissor – Amil Amal), "Sizə məktub var" (Məzahir Həşimov) və "Dan yeli" (Kamal Yaşar) qısametrajlı filmləri nümayiş etdirilib.



Masallı RMİ-nin Yardımlı rayonu üzrə nümayəndəsi Ayaz Əliyev iştirakçıları salamlayıb, layihənin əhəmiyyətindən danışıb.

"Cənubda kino günləri" layihəsinin icraçı prodüseri İntiqam Hacılı və Xalq artisti Qabil Mehdixanlı layihənin məqsədi və nümayiş etdiriləcək filmlər haqqında məlumat veriblər. Bildirilib ki, layihənin məqsədi Azərbaycan filmlərini geniş ekranlarda yerli tamaşaçılara nümayiş etdirməklə kino həvəskarlarına son illərdə istehsal olunan, eləcə də, bəzi beynəlxalq kino festivallarda uğurlar qazanan filmlərimizi və rejissorlarımızı tanıtmaqdır.

# Gənclər asudə vaxtını necə keçirir?



Lənkəran RMİ, Lənkəran Gənclər və İdman İdarəsinin birgə təşəbbüsü ilə "Gənclərin asudə vaxtının səmərəli təşkili" layihəsi çərçivəsində kəndlərdə silsilə görüşlər keçirilir.

Növbəti belə görüş Sütəmurdov kənd Diyarşünaslıq evi və Mamusta kənd Folklor evində təşkil edilib.

Lənkəran RMİ-nin rəisi Şahin Şahbazov bildirib ki, yeniyetmə və gənclərin asudə vaxtının səmərəli təşkili üçün mədəniyyət evlərinin nəzdində təşkil olunan dərnəklərə cəlb olunması vacibdir.

Lənkəran Gənclər və İdman İdarəsinin rəis vəzifəsini icra edən Teymur Babazadə sağlamlıqlarını qorumaq üçün insanların erkən yaşlarından idmanla məşğul olmalarını qeyd edib.

Tədbirin bədii hissəsində adı çəkilən mədəniyyət müəssisələrində özfəaliyyət dərnəklərinin üzvləri şeirlər və musiqi nömrələri təqdim ediblər.

# Zəngilan hava limanına beynəlxalq kod verilib

Zəngilanda inşa edilən hava limanına ZZE – üçhərfli beynəlxalq kod təyin edilib. "Azərbaycan Hava Yolları"ndan bildiriblər ki, müvafiq qətnamə Beynəlxalq Hava Nəqliyyatı Assosiasiyasının sərnişindaşımalarına dair konfransında (IATA Passenger Services Conference) qəbul edilib.

Hava limanına təyin edilmiş kod şəhərin (Zəngilan) və yerləşdiyi regionun (Şərqi Zəngəzur) adından istifadə edilərək yaradılıb.

IATA-nın üçhərfli hava limanı kodu sərnişin və yük aviadaşımalarının kommersiya təşkilinə xidmət edir. O, beynəlxalq təxsisetmə zamanı və aerovağzal komplekslərinin yerüstü xidmətlərinin fəaliyyətində, yeni beynəlxalq aviabilet satışı sistemlərində, uçuş cədvəlində, hava əlaqəsində və s. istifadə olunur.

Xatırladaq ki, Zəngilanda beynəlxalq hava limanının inşasına 2021-ci ilin yazında başlanılıb. Tikinti işlərinin bu ilin sentyabr ayında başa çatdırılması planlaşdırılır. Burada bütün tip sərnişin və yük təyyarələri eniş edə bilər. Hava limanının uçuş-eniş zolağının uzunluğu 3 000 metr, eni 60 metrdir. Terminalın buraxılış qabiliyyəti saatda 200 sərnişin üçün nəzərdə tutulub.

# Cümhuriyyət nəğməkarı – Əhməd Cavad



Sabirabad RMİ Sabirabad rayon Heydər Əliyev Mərkəzi və rayon MKS-nin birgə təşkilatçılığı ilə "Cümhuriyyət nəğməkarı Əhməd Cavad – 130" adlı tədbir keçirilib. Tədbirdə Sabirabad rayon Heydər Əliyev Mərkəzinin direktoru Rəna Hacızadə, rayon MKS-nin direktoru Eldar Urufov və digərləri çıxış edərək Əhməd Cavad yaradıcılığı və onun Türk dünyasındakı yeri barədə fikirlərini bölüşüblər.

***

Masallı RMİ Yardımlı rayon Heydər Əliyev Mərkəzində "Əhməd Cavad – 130" mövzusunda tədbir keçirilib. Mərkəzin əməkdaşı Elşən Abışov istiqlal şairinin həyat və yaradıcılığı barədə məruzə edib. Sonra mərkəzin könüllüsü Kəmalə İbişli tərəfindən çəkilmiş Əhməd Cavadın portreti nümayiş olunub.

***

Ağstafa RMİ Tovuz Rayon Tarix-Diyarşünaslıq Muzeyində "Qəhrəman övladın şanlı vətəni" mövzusunda tədbir keçirilib. Əhməd Cavadın əzablı həyat yolu və həmişə müasir olan yaradıcılığı haqqında məlumat verilib.



***



Ağdaş RMİ Ağdaş rayon MKS-nin 1 saylı Gənclər Kitabxanası və rayon Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə istiqlal şairi Əhməd Cavadın (1892-1937) anadan olmasının 130 illiyi ilə əlaqədar tədbir keçirilib. Tədbirdə "Əhməd Cavad –130" adlı sərgi nümayiş etdirilib.

**Hazırladı: N.Məmmədli**

# Bölgələrdən müxtəlif səpkili xəbərlər



Gəncə RMİ-nin təşəbbüsü ilə Gəncədə ilk musiqi məktəbinin və musiqi texnikumunun yaradılmasında mühüm rol oynamış Məşədi Cəmil Əmirovun (1875-1928) məzarı ziyarət edilib. Anım mərasimində idarənin rəisi Vasif Cənnətov, mədəniyyət işçiləri və ziyalılar iştirak ediblər.

Gəncə RMİ-nin rəisi Mədəniyyət Nazirliyi tərəfindən "Şuşa İli" çərçivəsində uşaq musiqi, incəsənət məktəbləri şagirdlərinin iştirakı ilə keçirilən Muğam müsabiqəsində III yerin qalibi, Goranboy rayon M.Nazarov adına Qızılhacılı qəsəbə Uşaq musiqi məktəbinin şagirdi Tunar Salahov, müsabiqədə fəxri fərmanlarla təltif olunmuş Gəncə şəhər Z.Qayıbov adına 5 nömrəli Uşaq musiqi məktəbinin şagirdi Leyla Mehdiyeva və müəllimləri Nizami Əliyev, İlqar Qasımovla görüşüb. V.Cənnətov şagirdləri təbrik edib, yeni uğurlar arzulayıb.

Goranboy rayon Heydər Əliyev Mərkəzində "Xan qızı – Xurşidbanu Natəvan" adlı tədbir keçirilib. Görkəmli şairənin 190 illiyinə həsr olunan tədbirdə "Xurşidbanu Natəvan haqqında birlikdə öyrənək" adlı videoçarx nümayiş etdirilib.

***

Ağstafa RMİ aşıq Ə.Cəfərov adına Tovuz rayon Mədəniyyət Mərkəzi, rayon Heydər Əliyev Mərkəzi və Tovuz Dövlət Rəsm Qalereyasının birgə təşkilatçılığı ilə 30 iyul - İnsan alverinə qarşı beynəlxalq mübarizə günü münasibətilə əlaqədar "Heç kimsəyə laqeyd olmayaq!" adlı tədbir keçirilib.

Tovuz Dövlət Rəsm Qalereyasında Xurşidbanu Natəvanın 190 münasibətilə dərnək üzvlərinin əl işlərindən ibarət sərgi təşkil olunub.

***



İsmayıllı RMİ Qəbələ rayon Mədəniyyət Mərkəzində Gənclər və İdman Nazirliyinin yaradılmasının 28-ci ildönümünə həsr edilmiş rəsm sərgi-müsabiqəsi keçirilib. Rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı, Qəbələ Dövlət Rəsm Qalereyasının dəstəyi ilə keçirilən sərgidə 30-dək yeniyetmə və gənc rəssamın 60-dək əsəri nümayiş etdirilib.

***

Kürdəmir RMİ İmişli rayon Heydər Əliyev Mərkəzində regional idarənin tabeliyində fəaliyyət göstərən mədəniyyət müəssisələri rəhbərlərinin iştirakı ilə yığıncaq keçirilib.



Mədəniyyət müəssisələrinin gündəlik fəaliyyətinə, qarşıda duran vəzifələrin müzakirəsinə həsr edilən yığıncaqda əhaliyə göstərilən mədəni xidmətlərin səviyyəsinin yüksəldilməsi istiqamətində prioritetlər müəyyən olunub.

***

Bərdə RMİ-nin təşəbbüsü ilə əvvəllər mədəniyyət sahəsində fəaliyyət göstərmiş, hazırda təqaüddə olan mədəniyyət işçiləri ilə görüş keçirilib. İdarənin rəisi Vəsilə Möhsümova fəaliyyətləri dövründə yerlərdə sahənin inkişafına verdikləri töhfəyə görə onlara təşəkkür edib. Tədbir Bərdə rayon Mədəniyyət Mərkəzi tərəfindən təşkil olunmuş ədəbi-bədii kompozisiya və rəngarəng musiqi nömrələri ilə davam edib. Yevlax şəhər Xalq teatrı və Kukla teatrı tamaşalar nümayiş etdiriblər. Sonda keçmiş mədəniyyət işçiləri regional idarənin fəxri fərmanı ilə təltif olunub.

***

Biləsuvar RMİ-nin təşkilatçılığı, rayon İcra Hakimiyyətinin dəstəyi ilə Biləsuvar rayon Uşaq incəsənət məktəbində uzun müddət mədəniyyət sahəsində çalışmış, hazırda təqaüddə olan mədəniyyət işçiləri ilə görüş keçirilib.

# Azərbaycanın multikulturalizmini öyrənən əcnəbi tələbələr bir araya gəliblər



Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin (BBMM) ənənəvi "Yay məktəbi" bu il növbəti dəfə təşkil edilib. 2022-ci ilin yaz semestrində "Azərbaycan multikulturalizmi" və "Multikulturalizmə giriş" fənlərinin tədris olunduğu xarici və yerli universitetlərdə təhsil alan tələbələrin qatıldığı XII "Beynəlxalq Multikulturalizm Yay Məktəbi" iyulun 24-dən 31-dək Bakı şəhəri ilə yanaşı, Şəki, Qəbələ və Qax rayonlarında da fəaliyyət göstərəcək.

"Multikulturalizm siyasəti qlobal və regional sülhün açarı kimi" devizi altında təşkil olunan layihədə 14 ölkənin – Azərbaycan, Ukrayna, Rusiya, Türkiyə, Fransa, İspaniya, Misir, Türkmənistan, Gürcüstan, Rumıniya, Qana, Nigeriya, Bolqarıstan və Suriyanın universitetlərindən 20-dən çox tələbə iştirak edir.

Qəbələ rayonuna səfər edən iştirakçılar Nic kəndində yerləşən Udi ocağını və Müqəddəs Məryəm Ana kilsəsini ziyarət ediblər. Görüş zamanı Alban-Udi Xristian Dini İcmasının sədri Robert Mobili layihə iştirakçılarını maraqlandıran sualları cavablandırıb.

Sonra Qəbələ şəhərinə ekskursiya təşkil edilib. Qonaqlar "Tufandağ" istirahət kompleksində də olublar.

"Beynəlxalq Multikulturalizm Yay Məktəbi"nin iştirakçıları Şəkidə bir neçə mühazirədə iştirak edib, şəhərin tarixi məkanları ilə tanış olub, görməli yerlərini gəziblər. Tələbələrin diqqətinə çatdırılıb ki, 2019-cu ildə "Xan sarayı ilə birgə Şəkinin tarixi mərkəzi" UNESCO-nun Dünya İrsi Siyahısına daxil edilib.

Budəfəki "Beynəlxalq Multikulturalizm Yay Məktəbi"nə mühazirəçi kimi dəvət alanlardan biri də yeni fəaliyyətə başlayan Nizami Gəncəvi Vəqfinin direktoru Rəfi Qurbanovdur.

"Mən Beynəlxalq Multikulturalizm Yay Məktəbini iki cəhətdən faydalı hesab edirəm. Birinci cəhət odur ki, burada iştirak edənlərin böyük əksəriyyəti təmsil etdikləri ölkələrin universitetlərində Azərbaycan multikulturalizmi fənnindən dərs alan tələbələrdir. Onlar universitetlərdə öyrəndiklərinin nəzəri tərəfini burada praktiki cəhətdən öz gözləri ilə görür, kitablarda oxuduqları məqamlara daha da aydınlıq gətirirlər", – deyə o, layihə iştirakçıları ilə Şəkidə görüşdən sonra bildirib.

Nizami Gəncəvi Vəqfinin direktoru qeyd edib ki, belə tədbirlər Azərbaycanın gənc dostlarının sayının artırılmasına töhfə verən amillərdən biridir: "İnsan öz gözü ilə gördüyü şeyə daha tez inanır, nəinki eşitdiyi. Bu baxımdan multikulturalizm məktəblərinin fəaliyyətini müsbət qiymətləndirirəm".

# "Yay Fest"də Vətən müharibəsinin igidləri ilə görüş

Şamaxıda fəaliyyət göstərən tələbə gənclərin "Yay Fest" düşərgəsində Vətən Müharibəsi qəhrəmanları Vüsal Yaqubov və Azər Abdullazadə, qazilər Bəhruz Məmmədzadə, Rəfail Nuriyev, Əqil Sultanov, Əhliyət Mehdiyev gənclərlə görüşüb.

Görüşdə Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qazanılan tarixi Zəfərdən söhbət açılıb. Qonaqlar keçdikləri döyüş yolu barədə xatirələrini söyləyib, gənclərlə maraqlı müzakirələr aparıblar.

Xüsusi Təyinatlı Qüvvələrin ehtiyatda olan zabit və gizirləri tərəfindən sıra hazırlığı, silahla davranış, atəş hazırlığı, əlbəyaxa döyüş üzrə praktiki təlimlər keçirilib. Gənclər üçün hərbi idman oyunları, təbiətə ekskursiyalar və asudə vaxtda müxtəlif əyləncələr təşkil olunub.

Qeyd edək ki, sentyabrın 9-dək davam edəcək "Yay Fest" çərçivəsində mərhələli şəkildə fərqli mövzular üzrə 8 düşərgə təşkil olunacaq. Ümumilikdə 2000 gəncin "Yay Fest"dən faydalanması nəzərdə tutulur.




Festival Gənclər Fondunun dəstəyi, Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqı, Azərbaycan Könüllü Təşkilatları İttifaqı, "Cavan" Gənclər Hərəkatı İctimai Birliyi və "Gənclərin Maarifləndirilməsinə Dəstək" İctimai Birliyinin təşkilatçılığı ilə keçirilib.

# “Kino rəssamı filmi fəzada görməlidir...”

## Rafiq Nəsirov: “Baxmayaraq ki, yüzdən artıq filmdə çalışmışam, amma hər yeni iş mənim üçün yeni bir məsuliyyət və həyəcan deməkdir”

“Bəyin oğurlanması”, “Cavad xan”, “Həm ziyarət, həm ticarət”, “Yaramaz”, “Bəxt üzüyü”, “Otel otağı” kimi filmlərimizi yəqin xatırlayırsınız. Kino sintez sənət olduğu üçün bu filmlərin hər birinin tamaşaçı rəğbəti qazanmasında rejissor işi ilə yanaşı, kino rəssamının da böyük rolu var.

Tanınmış kinoşünas, Əməkdar incəsənət xadimi Aydın Kazımzadə kino rəssamlığı haqqında danışarkən deyir: “Kino rəssamlığı teatr tərtibatı, dekorativ-tətbiqi, dəzgah boyakarlığı, qrafika, memarlıq və heykəltəraşlıq sənətləri ilə qarşılıqlı əlaqədə yaranmış və kino istehsalı prosesində formalaşmışdır. Ona görə də kino rəssamı hərtərəfli biliyə – inşaat layihəsinə, tikinti texnikasına, memarlığın tarixinə və üslub müxtəlifliyinə yaxşı bələd olmalıdır”.

Rəssamlar obrazların, hadisələrin dolğun və təbii alınması, keçmişi hərtərəfli öyrənmək üçün tədqiqatçı kimi axtarışlar aparmalı olurlar. Filmlərə baxarkən dekorasiyalar, aktyorların geyimləri və digər nüanslar bizi ciddi maraqlandırır. Rəssamın kinoda iştirakı filmlərin daha canlı və emosional alınmasına mühüm təsir göstərir. Həm tarixi, həm də digər janrlarda ekranlaşdırılan filmlərdə rəssam işinin uğurlu həlli ekran əsərini daha da baxımlı edir.

Xalq rəssamı, Prezident təqaüdçüsü, onlarla filmimizin bədii tərtibat müəllifi olan Rafiq Nəsirov da sənətdə iz qoymuş peşəkarlardandır.

Bu il 75 illiyini qeyd edən sənətkarla Milli Kino Günü ərəfəsində, elə iş başında görüşdük. Yeri gəlmişkən, qeyd edək ki, Xalq rəssamı bu il Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının Milli Kino Mükafatına layiq görülüb.

Çəkiliş pavilyonunda ayaqüstü söhbətimizdən bəzi məqamları diqqətinizə çatdırmaq istədik.



*– Rafiq müəllim, ilk növbədə Sizi qarşıdan gələn Milli Kino Günü, yubileyiniz və mükafat münasibətilə təbrik edirik. Mükafata layiq görülməyiniz xəbərini necə qarşıladınız?*

– Düzü, gözlənilməz oldu. Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqı İdarə heyətinin üzvü olaraq iclasda iştirak edirdim. Kino Günü ərəfəsində layihə və məsələləri müzakirə edirdik. Bir də eşitdim dedilər ki, Milli Kino Mükafatı yekdilliklə Rafiq Nəsirova verilir.

*– Kino rəssamlığına gəldiyiniz yol necə başladı?*

– Azərbaycan Politexnik İnstitutunun (indiki Azərbaycan Texniki Universiteti – red.) Memarlıq fakültəsini bitirmişəm. İnstitutu bitirəndən sonra görkəmli memar Mikayıl Hüseynov məni Azərbaycan Elmlər Akademiyasına işləməyə dəvət edirdi. Kinorejissor dostum Oqtay Mirqasımov dedi ki, niyə gedib idarə işçisi kimi çalışmalısan. Gəl gedək, kinostudiyaya. 1969-cu ildən “Azərbaycanfilm” Kinostudiyasında memar kimi çalışmağa başladım. Daha sonradan görkəmli sənətkarlar Nadir Zeynalov, Elbəy Rzaquliyevlə birlikdə işləyərək kino rəssamlığına bələd oldum. Onu da qeyd edim ki, xarici ölkələrdə kino rəssamı deyə bir ixtisas yoxdur. Orada bu işlə memarlar məşğul olurlar. Çünki kino rəssamı filmi fəzada görməlidir. Bu iş həcm işidir. Bu səbəbdən də mənim bu sahəyə gəlişim asan oldu. Elbəy Rzaquliyev, Rafiq İsmayılov kimi sənətkarlarla işləyərək sonradan artıq fərdi rəssam kimi çalışmağa başladım. Bilirsiniz, mən memaram, bunun üstünlüyü odur ki, memar məkanı üç ölçüdə görə bilir. Xarici filmlərdə titrlərdə memar-rəssam yazırlar. Bir müstəvidə işləyən rəssamdan fərqli olaraq o, vizual məkanı daha dəqiq görə bilir.

*– İlk müstəqil işlədiyiniz film hansı oldu?*

– Mərhum rejissorumuz Tofiq İsmayılovla “Əzablı yollarla” filmində işlədik.

*– “Məlikməmmədin nağılları”nın motivləri əsasında lentə alınan film. Nağıl-filmdə çalışmaq çətin deyildi ki?*

– Xeyr, əksinə, filmin çəkilişləri zamanı maraqlı məqamlarla rastlaşdıq.

*– Ən çox əmək sərf etdiyiniz film hansı olub?*

– Düzünü deyim ki, əmək və məsuliyyət tələb etməyən filmləri qəbul etmirəm. Çalışıram o filmləri işləyim ki, orada çoxlu iş və yaratmaq imkanı olsun. Məsələn, “Cavad xan”, “Yeddi gözəl” filmbaleti və çalışdığım digər filmlər.



*– Siz həm də memarlıq nümunələrinin müəllifisiniz...*

– Bakı şəhərində bir neçə iaşə müəssisəsinin müəllifiyəm. Hazırda Gədəbəy rayonunda layihəm əsasında böyük bir hotel inşa olunur. XI-XII əsr memarlıq məktəbimizi əks etdirir. Mərakeş və Azərbaycan memarlığının sintezini yaratmışam bu layihədə. Xəzər rayonunun Qala kəndinə dönən yolda məşhur “Qala bazar” deyilən layihə də mənə məxsusdur.

*– 40 ildən artıq bu sahədə çalışan insan kimi kino sizin üçün nə deməkdir?*

– Janrından asılı olmayaraq hər yeni film mənim üçün yeni bir məsuliyyət və həyəcan deməkdir. Baxmayaraq ki, bu günə kimi 100-dən artıq filmə bədii tərtibat vermişəm.

*– Bildiyim qədər, Azərbaycandan kənarda da filmlərə quruluş vermisiniz...*

– Rusiya kanalları ilə bir çox filmlər işləmişik. Beş ilə yaxın Rusiyanın Birinci kanalı və NTV ilə çalışdım. Bədii filmlər və tarixi seriallar çəkmişik. Rusiyanın NTV kanalı ilə yayımlanan “Dronqo”, “Jurnalist”, “Qraf Kristovski” və s. teleseriallarının rəssamı olmuşam. Polşa, Fransa kinematoqrafçıları ilə, tanınmış aktyor Jerar Depardye ilə birgə işlərim olub.

*– Hazırda çəkiliş meydançasındayıq...*

– Bəli, “Mehmandarovlar” filmi üzərində çalışırıq. Rejissoru Yavər Rzayevdir. Bədii-sənədli filmdir. Əsas çəkilişlər Bakıda olacaq. Filmin bir hissəsini isə Şuşada “Mehmandarovların evi”ndə lentə aldıq. Hazırda malikanə Heydər Əliyev Fondu tərəfindən restavrasiya olunur deyə tikilinin həyətində çəkilişlər apardıq.

*– Bu il işlədiyiniz başqa film oldumu?*

– Bundan əvvəl Asif Rüstəmovun “Mərmər soyuğu” filmində çalışmışam.

*– Qısa və konkret danışırsınız...*

– Bilirsiniz ki, müsahibə verməklə aram yoxdur. İşimi görüm, vəssalam. Durum özümü tərifləyim, nə mənası var. Bu mənim xasiyyətimə uyğun deyil. İşimi xalq görür, bu mənə bəs edir. Sadəcə, biz illərdir tanışıq deyə, ona görə də yarızarafat-yarıgerçək söhbət üçün yeddi dəqiqə vaxtımız var dedim. Amma 17 dəqiqə keçib...

*– Elə isə bu günlük son sual. Yaradıcılıq fəaliyyətində dekorasiya ilə bağlı başınıza gələn maraqlı və unudulmaz hadisə yəqin ki, olub.*

– Əlbəttə, olub. Belə bir hadisə elə “Əzablı yollarla” filminin çəkilişləri zamanı baş verdi. Biz filmin çəkilişi üçün Naxçıvandakı “Əshabi-kəhf” mağarasını məkan olaraq seçdik. Ərazidə cinlərin imarətini tikmək qərarına gəldik. Bu mərhələdə çəkiliş qrupu avtomobil qəzasına düşdü. Heyətin, mən də daxil, 70 faizi zədələr aldı. Ağır travmalarla xəstəxanaya yerləşdirilənlər oldu. Amma hərdən düşünürəm ki, mənim yüngül xəsarət almağımın bir səbəbi də var. O vaxt ziyarətçilər “Əshabi-kəhf”ə nərdivanla qalxırdılar və sona kimi nərdivan yox idi. Mən çəkilişə hazırlıq ərəfəsində orada daşdan nərdivan tikdirdim. Düşünürəm ki, bəlkə də bu savab işim məni həmin qəzada ağır xəsarətdən xilas etdi... Onu da deyim ki, orada çəkilişlərimiz alınmadı, qayıdıb Bakıda pavilyonlarda filmi ərsəyə gətirdik.

*– Bizə vaxt ayırdığınız üçün sizə təşəkkür edir, bir daha yubileyinizi və qarşıdan gələn peşə bayramınızı təbrik edirik.*

– Çox sağ olun.

**L.Azəri**

# Abşeron torpağına rəsmlərlə sevgi etirafı...

## “Bu sərgini mən köhnə Abşeron mənzərələrinə həsr etmişəm...”





Bu günlərdə İçərişəhərdəki “Qız qalası” qalereyasında Bütünay Haqverdiyevin sərgisinin açılışı barədə xəbər aldım. Sərginin adı diqqətimi cəlb etdi: “Abşeron külləkləri”.

Yayın cırhacırında bu ifadə, təbii ki, düşüncədə istirahət, dəniz, torpaq, səma anlayışını canlandırır. Onu da qeyd edim ki, sərginin açılışına tanınmış sənət adamlarının qatıldığını bilirdim. Deməli, Abşeron mövzusu hələ də maraqlı və aktualdır. Baxmayaraq ki, Abşeronun ekosistemi xeyli dərəcədə məhv edilib. Elə bu düşüncələrlə sərgiyə baxmağı qərara aldım...

Sərgidə 28 əsər təqdim edilir. Hər biri özünəməxsus aura bəxş edir və rəssamın yanaşması da diqqətçəkəndir. Abşeron mühiti, dəniz, yay fəsli və koloritə rəssamın məxsusi yanaşması. Təbii ki, hər bir yaradıcı şəxsin öz baxışı, öz hissi var. 40 il əvvəl Tahir Salahovun fırçasından çıxan Abşeronla müasir Abşeron motivləri arasında fərqi tam aydın görmək olur bu əsərlərdə. Zaman keçir, çox şey dəyişir. Ana təbiət də qloballaşmaya məğlub olur sanki.

Ekspozisiyada Bütünay Haqverdiyevin üç il əvvəl Bakıdan şəhərətrafı ərazilərə, Nardaran kəndinə, Lahıc bağlarına köçdükdən sonra yaratdığı əsərlərə baxdıqca keçmişlə bu gün arasındakı fərqi, daha doğrusu, uçurumu görmüş oluruq.

Rəssam özü sərgi haqqında deyib: “Pandemiya başlayandan Abşeronda qalıram. Köçdüm şəhərdən kənara və orada tərk edilmiş çimərlikləri çox gəzdim. Təbii ki, o, mənə çox təsir edib. Bu sərgini mən köhnə Abşeron mənzərələrinə həsr etmişəm. Həm də ətrafımda olan adamlara bu mənzərələri göstərmək istəyirdim. Günümün cədvəli ondan ibarətdir ki, səhər tezdən çıxıb dəniz kənarını gəzirəm, ya da axşama doğru Günəşin gözəl işığı olanda rəsm də çəkirəm, foto da. Günün axırında isə gəlib o təsvirləri kətana köçürürəm”.

Rəssam ətraf aləmi fəlsəfi şəkildə dərk etmək üçün əsərlərində keçmişlə bu günü möcüzəvi şəkildə birləşdirib. Onun rəsmləri sadə süjeti ilə tamaşaçıların diqqətini cəlb edir. Məsələn, günəşli havada köhnə avtomobillərin üzərində bərq vuran işıq və kölgənin füsunkar oyunu insanı bir anlığa xəyallar aləminə qərq edə bilir. Sanki bu maşında sən nə zamansa həmin sahillərdə gəzib, hətta pəncərəsindən əl uzadıb qonşu bağın heyva ağacından bir heyva da qopartmısan...

Fırça ustasının detallara məxsusi diqqəti, kompozisiya ilə həssas işi valehedicidir. O, mənzərəni əsl realist sənət nümunəsinə çevirə bilib. Əsərlərin hər biri Abşeronun təkrarolunmaz səmimiyyət və nostalji dolu aurasını hopdurur. Sanki bu rəsmlər bütöv bir dünyadır. O dünya ki, nağıl kimi uçub gedən, dağılan dünyamızın xatirələrini yaşadır özündə. Paytaxt sakinlərinin bir çox nəsillərinin uşaqlığının parlaq, unudulmaz xatirələrini, Abşeronun qızıl qumunun, Xəzərin şıltaq dalğalarının sənətə çevrildiyi məqamı seyr etmək də insanda qəribə hisslər yaşadır.

Bütünay bu əsərlərlə sanki doğma torpağa sevgi etirafı edir. Mənim, sənin və başqalarının dillə deyə bilmədiyi sevgi etirafını rənglərin sehri ilə çatdırır. Rənglərin harmoniyası da elə bil Abşeron nəğmələri pıçıldayır bu əsərlərdə. Sakit və mülayim, küləkli və çılğın Abşeronun xəzrisinin şoran qoxusuna, gilavarının isti yelinə, Buzovna mehinin sərinlik çiləyən havasına qərq olursan bu rəsmlər içində. Müxtəlif texnikalarla işlənmiş əsərlərin hər biri sanki Tofiq Quliyevin Bakısından, Vaqif Mustafazadənin Bakı gecələrindən soraq verir.

Bütünay Haqverdiyevi digərlərindən fərqləndirən xüsusiyyət hamıya tanış olan obrazda başqalarının gözündən qaçan məqamı göstərmək bacarığıdır. Onun əsərlərində hər şey harmoniya içərisindədir. Qayğısız yay, yayın sonu və payız motivləri... Bütün bunlar rənglərin harmoniyasında seyrçiyə elə incəliklə təqdim olunur ki, iki mövsüm arasında keçidi əhval-ruhiyyəyə mənfi təsirsiz, demək olar yüngülvarı hiss edirsən. Və bu məqamda Yelena Haqverdiyevanın fikrini xatırlayıram: “Bu dünyada hər şey dəyişir, çox şey keçmişdə qalır, yeniliklər bizi cəlb edir, amma Abşeronun ruhu həmişə dəyişməz qalır. Bu, şairlərin, yazıçıların, rəssamların, musiqiçilərin oxuduğu neçə-neçə nəsillərin qəlbinin musiqisidir! Abşeron küləkləri bizi romantik xatirələrə aparır və bizə ən gözəl mənəvi hisslər bəxş edir”.

Qürub edən günəş, tənha qalmış sahil, bir zamanlar dəbdə olması ilə qürrələnən sovet avtomobilləri, talvardan boylanan qara şanı və küləyin vıyıltısında rəqs edən taxta külafirəngilər... Duyğulu və duyğusuz küləkləri rəssam elə ustalıqla təsvir edib ki, bütün bunlar təbiətdən, reallıqdan rəssamın sənət dünyasına inteqrasiya edən, sanki köçərək əbədi bu dünyada məskən salan atributlara çevriliblər.

Sərgidən xoş və bir az da kədərli hisslərlə ayrılıram. Rəssam ailəsində dünyaya gələn, bu mühitdə böyüyən Bütünayın budəfəki sərgisinin özəllikləri isə hələ də məni düşündürür. Görəsən, niyə “Abşeron küləkləri”?...

***

Konseptual heykəltəraş və rəssam Bütünay Haqverdiyevin daim təkmilləşən kreativ təcrübəsi müxtəlif incəsənət sahələrini və janrları əhatə edir. 1989-cu ildə Bakıda tanınmış rəssam Ucal Haqverdiyevin ailəsində dünyaya gələn Bütünay Əzim Əzimzadə adına İncəsənət Kollecində oxuyub, sonra təhsilini Moskvadakı Britaniya İncəsənət və Dizayn Ali Məktəbində davam etdirib. 2003-2008-ci illərdə rəssamlar qrupu ilə birgə Bakıda yerləşən pravoslav kilsəsinin freskalarının çəkilməsi və restavrasiyası ilə məşğul olub. İlk fərdi sərgisi 2010-cu ildə Bakıdakı Müasir İncəsənət Mərkəzində keçirilib. Bundan sonra ölkəmizdə, həmçinin Rusiya, Fransa və İtaliyada baş tutan qrup sərgilərinə qatılıb. 2013-cü ildə əl işi İtaliyada keçirilən 55-ci Venesiya Biennalesində Azərbaycan pavilyonunda yer alıb. 2015-ci ildə isə onun taxtadan hazırlanan Azərbaycan xalça motivləri Kann Festival Sarayında keçirilən “İncəsənətdə Azərbaycan xalçaları” sərgisində nümayiş etdirilib.

**Lalə**

# Çexovun “Təklif”i DOST-un inklüziv səhnəsində

DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzində rus yazıçısı Anton Çexovun “Təklif” pyesi əsasında hazırlanan tamaşanın premyerası olub. Rejissor Əbdülqəni Əliyevin quruluş verdiyi tamaşada sağlamlıq imkanları məhdud aktyorlar iştirak ediblər.



Premyeranı tanınmış incəsənət xadimləri də izləyiblər. Onlardan bəziləri tamaşa haqqında fikirlərini media mənsubları ilə bölüşüblər.

Əməkdar artist Sənubər İsgəndərli deyib: “Biz onları sağlamlıq imkanları məhdud insanlar hesab etsək də, əslində, onlar da cəmiyyətin bir üzvüdür. Onların çıxışı çox gözəl təsir bağışladı. Hətta ürəyimdən səhnəyə atılmaq, onlarla birlikdə oynamaq, rəqs etmək keçdi. Bu, bir arzu olaraq qəlbimdən keçsə də, yəqin ki, mən mütləq gəlib onlarla bir səhnəni bölüşəcəyəm. Əlbəttə, gözəl təşəbbüsdür və bu təşəbbüsü araya-ərsəyə gətirənlərə təşəkkür edirəm. Teatr gözəl sənətdir və bu gün ona belə maraq varsa, bu, yalnız bizi sevindirə bilər”.

Xalq artisti Fəxrəddin Manafov tamaşaya böyük maraqla baxdığını deyib: “Teatr mədəniyyətin çox vacib sahələrindən biridir. Tamaşanın quruluşçu rejissoru, DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin səhnə ifaçılığı üzrə təlimçisi Əbdülqəni Əliyevi yaxşı tanıyıram və mənə elə gəlir ki, belə bir məkanda belə aktyorların gücü ilə tamaşa qoymağı mədəniyyətə çox böyük bir töhfədir. Bundan sonra da burda nümayiş olunan tamaşaları məmnuniyyətlə izləyəcəyəm”.

Əməkdar mədəniyyət işçisi Rahib Azəri də tamaşadan böyük zövq aldığını bildirib: “Hər şey yüksək səviyyədə idi. Xüsusilə sağlamlıq imkanları məhdud aktyorların işə peşəkarlıqla yanaşmasını çox bəyəndim. Səhnədə aktyorun arabadakı tərəf-müqabilini havaya qaldırıb rəqs etməsi xüsusilə çox təsirli idi. Bu tamaşa üzərində çalışan, zəhmət çəkən hər kəsə bir də ona görə minnətdarlıq edirəm ki, əslində, cəmiyyətdə bu gün də aktual olan məsələləri klassik əsərin vasitəsilə çox gözəl təqdim etdilər”.

Tamaşanın musiqi tərtibatçısı, Əməkdar artist Vüqar Camalzadə isə fikirlərini belə ifadə edib: “Müəyyən sağlamlıq problemi olanların cəmiyyətə inteqrasiyası və onların böyük zəhməti hesabına başa gələn bu tamaşa üzərində həm təlimçilər, həm könüllülər, həm də dəvət olunanlar neçə vaxt idi ki, çalışırdılar. Hər kəs bu tamaşanın uğurlu alınması üçün əlindən gələni etmişdi. Görünür, elə buna görə də “Təklif” çox uğurlu alınmışdı. Sağlamlıq problem olanların daxili dünyasını açmaq və onların cəmiyyətin tamhüquqlu üzvünə çevrilməsi üçün əlimizdən gələni əsirgəməyəcəyik”.

# “Xoşbəxtəm ki, torpaqlarımızın azad olunmasında övladımın da rolu var”



Şəhidlər torpaqlarımızın azadlığı uğrunda ölümü gözə alıb düşmən üzərinə gedən, canını fəda edən qəhrəman Vətən övladlarıdır. Vətən isə, sadəcə, torpaq parçası deyil, həm millətin namusu, həm də qürur yeridir. Biz şəhidlərimizin qanı ilə suvarılan bir torpaqda qorxusuz, rahat yaşayırıqsa, şəhid və qazilərimizə borcluyuq.

44 günlük Vətən müharibəsində torpaqlarımızın düşməndən azad edilməsində igidlik göstərərək şəhidlik zirvəsinə ucalan oğullarımızdan daha biri – 22 yaşlı Məhəmməd Məmmədov haqqında söz açacağıq.

Məhəmməd Abbas oğlu Məmmədov 1998-ci il noyabrın 13-də Ağcabədi rayonunda anadan olub. 2005-2016-cı illərdə Ş.Hüseynov adına Ağcabədi şəhər 2 saylı tam orta məktəbdə təhsil alır. 2017-ci ildə orta məktəbi bitirib hərbi xidmətə yollanır. Vətən qarşısında əsgəri borcunu Naxçıvan Muxtar Respublikasında yerinə yetirir.

2020-ci ilin 27 sentyabrında Vətən müharibəsi, əsir yurdlarımızın düşməndən azad olunması üçün qanlı döyüşlər başlayır. Məhəmməd sentyabrın 29-da könüllü olaraq cəbhəyə yollanır. İlk gündən silahdaşları ilə qorxmadan düşmənin üzərinə gedir. Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlı uğrunda döyüşlərdə fəal iştirak edir.

Şəhidin anası Gülmira Məmmədova oğlunun kiçik yaşlarından zəhmətə alışdığını deyir: “Məhəmməd hər zaman ailəsinin yanında olub. Yaxşı işləri və əməlləri ilə öz yaşıdlarından fərqlənməyi bacarıb. O, müharibəyə getməsi barədə evdəkilərə xəbər verməyib. Cəbhəyə könüllü getməyindən yalnız dayısının məlumatı olub. Məhəmməd müharibənin gedişində imkan tapdıqca bizimlə əlaqə saxlayırdı. Hər şeyin yaxşı olduğunu və Qələbəyə az qaldığını deyirdi. Oğlum Füzuli rayonunun azad olunmasında fəal iştirak edib. Cəbrayıl, Qubadlı və Zəngilan rayonları uğrunda da döyüşüb. Qubadlının 4 kəndinin işğaldan azad olunmasında böyük şücaət göstərib. Xoşbəxtəm ki, o torpaqların azad olunmasında övladımın da rolu var”.

Atası Abbas Məmmədov oğlunun cəsur, mərd olmasından qürurla danışır: “Məhəmməd kiçik yaşlarında çılğın, nadinc olsa da, ürəyitəmiz və xoşxasiyyətli övlad idi. Onun hərbçi sənətinə böyük marağı vardı. Televiziyada yayımlanan hərblə bağlı verilişlərə böyük maraqla baxardı. 2016-cı ilin Aprel döyüşləri heç vaxt onun yaddaşından çıxmırdı. O döyüşləri hər zaman xatırlayır və mənfur düşmənə nifrət bəsləyirdi. Şəhidlik zirvəsini Məhəmmədin alnına uca Allah yazıb. İndi o öz adına nə qədər layiq olduğunu sübut etdi. Allah Məhəmmədə və bütün şəhidlərimizə rəhmət eləsin”.

Məhəmməd oktyabrın 21-də Qubadlı istiqamətində gedən ağır döyüşdə qəhrəmancasına şəhid olub. Noyabrın 7-də Ağcabədi rayon Şəhidlər xiyabanında torpağa tapşırılıb.

Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə Məhəmməd Məmmədov ölümündən sonra “Vətən uğrunda”, “Cəsur döyüşçü”, Füzuli, Cəbrayıl və Qubadlının azad olunmasına görə medalları ilə təltif edilib.

Ruhu şad olsun.

**Nurəddin**

# “Sənətə bağlı ömür”

## Canəli Əkbərovun xatirəsinə həsr olunmuş musiqili-ədəbi məclis



Lənkəran Regional Mədəniyyət İdarəsi (RMİ) Qəni Vəliyev adına Lənkəran şəhər Mədəniyyət Mərkəzinin Şağlaser kənd Sənətkarlıq evində görkəmli muğam ustası, Xalq artisti, professor Canəli Əkbərovun (1940-2021) xatirəsinə həsr olunmuş "Sənətə bağlı ömür" adlı musiqili ədəbi məclis keçirilib.

Tədbirdə mərhum xanəndənin dostları, pərəstişkarlar və qohumları, yerli sakinlər, habelə digər qonaqlar iştirak ediblər.

İştirakçılar əvvəlcə Canəli Əkbərovun ifasında “Qarabağ şikəstəsi” zərb muğamının lent yazısının sədaları altında kənd sənətkarlıq evində təşkil olunmuş sərgiyə və fotostendə baxış keçiriblər.

Tədbiri giriş sözü ilə Lənkəran RMİ-nin nümayəndəsi Anar Kakayev açaraq Canəli Əkbərovun Azərbaycan muğam sənətinin inkişafında xidmətlərindən danışıb. Bildirib ki, görkəmli xanəndə və mahir pedaqoqun xatirəsi sənətsevərlərin qəlbində həmişə yaşayacaq.

Xalq artisti, tanınmış radio diktoru Eldost Bayram, “Söz” jurnalının baş redaktoru Sevda Əlibəyli, Canəli Əkbərovun yaxın dostu Fərəməz Məhərrəmov, kənd ağsaqqalı Hacı Zabil, Qəni Vəliyev adına Lənkəran şəhər Mədəniyyət Mərkəzinin direktor əvəzi Habil Əliyev, sənətkarın qardaşı Tərlan Əkbərov və digər çıxış edənlər Canəli Əkbərovun milli xanəndəlik məktəbinin nailiyyətlərini layiqincə davam etdirdiyini və Azərbaycanın musiqi mədəniyyəti xəzinəsinə mühüm töhfələr bəxş etdiyini vurğulayıblar

Şair-qəzəlxan Xilqət Talıbov, muğamatçılar İlkağa Şahbazov, İmanverdi Ağayev və Ələddin Məmmədov, “Nənələr” folklor ansamblı, “Babalar” qrupu və digərləri öz ifaları ilə məclisi rövnəqləndiriblər.

Sonda Sənətkarlıq evinin direktoru Lətif Nəhmətov və tədbirin aparıcısı Əli Əkbərov mərhum muğam ustası Canəli Əkbərovun sənətinə dəyər verdikləri üçün məclis iştirakçılarına təşəkkürlərini bildiriblər.

**Ağaddin Babayev**
**Lənkəran**

# Şairlə xanəndənin dostluğu

Xalq şairi Səməd Vurğun klassik xanəndələrdən Cabbar Qaryağdıoğlu, Məşədi Cəmil Əmirov, Keçəçioğlu Məhəmməd, İslam Abdullayev, Malıbəyli Əsgər, Musa Şuşinski və başqaları ilə şəxsən tanış olmuş, yazılarında və çıxışlarında onların sənətinə yüksək qiymət vermişdir. O, dahi Üzeyir bəy Hacıbəylinin də şəxsiyyətinə böyük hörmət bəsləyib, bəstəkar haqqında sanballı məqalə və şeirlər yazıb. Şair 1948-ci ildə “İnsan qəlbinin tərənnümçüsü” adlı məqaləsində yazırdı: "...Üzeyir musiqisini dinlədiyimiz zaman biz bəzən qaşlarımızı çatıb, loğman kimi düşünürük, bəzən həyat və insan eşqinə odlardan, alovlardan keçən qəhrəmanlar oluruq, bəzən ürəyimiz kaman kimi təlatümə gəlir, bəzən də sakit və nurlu bir yaz səhəri kimi açılırıq, özümüzdə dağlarda külüng çalan Fərhadlar qüdrəti hiss edirik, xəyalımız uçduqca yaşadığımız ana torpağı, onun yaratdığı insan adlı böyük neməti daha çox sevirik, öz varlığımız və tariximiz ilə fəxr edirik".

Tədqiqatçı-jurnalist **Vasif Quliyevin** Xalq şairi Səməd Vurğunla Xalq artisti Xan Şuşinskinin dostluğundan bəhs edən məqaləsində bu barədə söhbət açılır. AZƏRTAC həmin məqaləni təqdim edib.





### Gəncədən başlanan tanışlıq

...Səməd Vurğun Xan Şuşinskinin səsini ilk dəfə ötən əsrin iyirminci illərində Gəncədə eşitmişdi. O vaxtdan da xanəndənin sənəti, ecazkar səsi onu məftun eləmişdi. Çox çəkmədən hər iki sənətkar şəxsən tanış olmuş və bu tanışlıq sonralar möhkəm və səmimi bir dostluğa çevrilmişdi. Şairin elə bir məclisi olmazdı ki, Xan orda iştirak etməsin. Xanəndənin səsinin “dəlisi” olan Səməd Vurğun özünün məşhur “Azərbaycan” şeirində onu xüsusi bir məhəbbətlə tərənnüm edir:

*Könlüm keçir Qarabağdan,*
*Gah o dağdan, gah bu dağdan,*
*Axşamüstü qoy uzaqdan*
*Havalansın Xanın səsi,*
*Qarabağın şikəstəsi.*

Şairin oğlu Vaqif Səmədoğlu xatirələrində Xan Şuşinski ilə atasının dostluğundan söhbət açır: “...Xan əmi mənim yadımda həyatım boyu gördüyüm ən saf, ən təmiz və zahirən ən gözəl insan kimi qalıb. Sənətkarlığını bir yana qoysaq, həm də doğrudan da görkəmli bir insandı. Xan əmi hərdən bizə atamla dərdləşməyə, söhbətə gəlirdi. Məclislərimizdə iştirak edirdi. O, hər il dekabrın 25-də dəvət gözləmədən bir qohum, bir əmi, Səməd Vurğunun dostu kimi bizə, rəhmətlik Yusifin ad gününə gələrdi. Günümüz çox şən keçərdi, Xan əmi, atam, Mehdixan əmim bir-biri ilə zarafatlaşardılar. Axı, zahirən onların oxşarlıqları da vardı.

Aralarında Qarabağ – Qazax dialektlərində gülməli söhbətləri olardı. Mənimlə Aybənizin doğum günü yay aylarına düşdüyünə görə orada-burada keçirərdik. Yusifin ad günü isə qışa düşdüyündən şəhərdə evimizdə keçirilərdi. Xan əmi Yusifin ad gününə xanəndə kimi yox, dost kimi gələrdi.

Səməd Vurğunun ağır vaxtları idi. Atam 1952-ci ildə çox ağır vəziyyətdə idi. O vaxt bizim ailə sürgün olunmalı, Səməd Vurğun isə tutulmalıydı. Hətta order də imzalanmışdı. Bizim sürgün yerimiz də artıq məlum idi. Qazaxıstanın hansısa vilayətinə. Bax, o dövrdə çoxları bizdən üz döndərmişdi. Belə bir vaxtda Xan əmi həftədə, on gündən bir gəlib, atama baş çəkərdi. Oturub, söhbət edirdi, fikrini dağıtmaq üçün zarafatlaşırdı. Onda mənim on üç yaşım vardı. Sonradan dərk elədim ki, bu kişidə xanəndəlikdən başqa, böyük ağsaqqallıq, müdriklik də var. Səməd Vurğunla Xan əmi həyatda bir-birlərini çox istəyiblər. İndi də Xan əminin duzlu, məzəli söhbətlərini unutmamışam”.

### İsa bulağında çal-çağır məclisi

1955-ci il iyulun 18-də bu iki ayrılmaz dostun son görüşləri də elə Şuşada İsa bulağında oldu. Həmin görüşdə iştirak edən görkəmli musiqişünas, Əməkdar incəsənət xadimi Firudin Şuşinski Xan Şuşinski haqqında yazdığı məqalədə bu görüşü belə təsvir edir: “... Səməd məni Xanın dalınca Ağdama göndərdi. Mən onun 09-61 nömrəli “Pobeda” markalı maşını ilə Ağdama getdim. Mənə dedilər ki, Xan Əhmədavar kəndindədir. Kəndə gələndə gördüm ki, o, tut ağacının altında oturub, tut yeyir, qardaşı Allahyar isə çay içir. Xan məni görcək təəccüblə:

– Boy, o, Firi bala (Xan çox vaxt məni nəvazişlə belə çağırardı), sən hara, bura hara?!

– Yol azmışam, - dedim.

– Ay canım, sən bicin birisən, yol azmazsan. – Sonra yarıciddi halda səsləndi: – Xeyir ola?!

– Dostun gəlib, səni İsa bulağında gözləyir.

Çox maraqlıdır, Xan soruşmadı ki, hansı dostum. Dərhal bildi ki, söhbət Səməd Vurğundan gedir. Sonra başını bulayıb, çiyinlərini çəkdi və gülümsəyərək dedi:

– Ay canım, Səməd ovcunun içini iyləmişdi? Nə bilib ki, mən burdayam?

– Xan, maşın gözləyir, vaxt da keçir, tərpənmək lazımdır, – deyib onun qolundan tutdum, kənddən çıxdıq...

İsa bulağında bu iki dost elə səmimi, elə mehriban qucaqlaşdılar ki, uzun illər bir-birlərinin həsrətində olan doğma qardaşlar kimi görüşdülər.

...Məclis qızışdı. Xan Səmədin ən çox sevdiyi “Mirzə Hüseyn segahı”nı oxudu. Özü də onun “Dünya” rədifli şeirini muğam üçün mətn seçmişdi... Şeir misra-misra səsləndikcə meşənin hər yanından “ay can, ay can, min yaşa, sənə nənəm qurban, şairə eşq olsun!” sədaları ucalırdı. O günü İsa bulağının başqa hüsnü vardı. Sərin meşə, soyuq bulaq, Xanın gözəl səsi, Səməd Vurğunun şair nəfəsi İsa bulağına başqa gözəllik verirdi. Məclisin axırında Xan Səməddən xahiş etdi ki, bir-iki ağız desin. Yaxşı yadımdadır, şair tarzənə dedi:

– Aya, Allahyar, o tarı “Yetim segah” üstündə köklə, bəri ver!

Səməd tarı döşünə basıb, sarı simdə gəzişdi. Bir qədər keçməmiş meşəni yanıqlı və həzin bir səs bürüdü. Bulaq ətrafındakı səkilərdə dincələn yüzlərlə adam bizi dövrəyə aldı.

Hamı heyrətlə Səməd Vurğunu dinləyirdi. O, son dərəcə aydın diksiya ilə Aşıq Ələsgərdən oxuyurdu. Səməd “Segah”ı pəsdən oxuyub qurtaranda meşəni alqış bürüdü. Xanın:

– Əmioğlu, axı, sən Vaqifi çox sevirsən, bəs niyə Vaqifdən yox, Ələsgərdən oxudun? – sualını eşidən Səməd dərindən “ah” çəkib dedi:

– Ay xan, Vaqif də bizimdir, Ələsgər də. Hər ikisi böyük sənətkardır. Amma nədənsə xəyalımı gəzdirən Qarabağ dağlarını seyr etdikcə istər-istəməz aşıq Ələsgərin “Dağlar” şeiri yadıma düşdü. Xüsusilə, böyük ustadın sözləri ürəyimi titrədir…

Səməd Aşıq Ələsgərin “Dağlar” qoşmasını əzbərdən deyəndə Allahyar tarı ondan alıb, “Kəsmə şikəstə” çalmağa başladı. Xan isə həmin sözləri şikəstə üstündə oxudu.

### Havalansın Xanın səsi və ya dostların son görüşü

O gün Səməd Vurğunun İsa bulağında qurduğu məclis gecədən keçənədək davam etdi. Artıq dan yeri sökülürdü. Meşənin bülbülləri yuxudan oyanmışdılar. Bunu görən Səməd üzünü Xana çevirdi:

– Ay Xan, ayə, eşidirsənmi? Səhər bülbülləri yuxudan oyanıblar.

Xan mehribancasına gülümsəyərək başını buladı:

– Əmioğlu, indi nə demək istəyirsən, nə qayıraq?

Səməd Vurğun yarıciddi, yarızarafatla:

– Necə yəni, nə qayıraq? Niyə görmürsən bu səhər bülbülləri səni yarışa çağırır? Sonra daha ciddi halda: – Onları susdurmaq lazımdır, – dedi.

– Nə ilə? – Xan gülümsər halda dilləndi:

Səməd hökmranə səslə:

– “Qarabağ şikəstəsi” ilə! – sonra vüqarla əlavə etdi: – qoy bu sərin meşələr, əzəmətli dağlar, bizə həsrət-həsrət baxan o nurlu dan ulduzu belə, Qarabağ bülbüllərinin deyişməsini eşitsinlər.

Səmədin bu sözləri hamının ürəyindən oldu. Məclisdəkilər bir ağızdan “Qarabağ şikəstəsi” deyib, Xanı alqışladılar. Şübhəsiz ki, Xanın başqa əlacı yox idi. O, Səmədin və məclisdəkilərin xahişini nəzərə alıb, Allahyara dedi:

– Qardaş, başla görək.

Bir qədər keçməmiş Xanın cazibədar səsi və cingiltili zəngulələri meşəni yenidən rövnəqə gətirdi. Nədənsə bu dəfə Xan şikəstə üstündə çox dərdli-kədərli sözlər oxuyurdu. Elə bil hiss edirdi ki, bir də Səmədlə görüşməyəcək. Təsadüfi deyil ki, şikəstəni bu sözlərlə qurtardı:

*İsa bulağının meşəsi,*
*Sındı qəlbimin şüşəsi.*
*Dostundan ayrı düşənin*
*Ağlamaq olur peşəsi.*

Xan qavalı yerə qoyar-qoymaz yenə də meşəni alqış sədaları bürüdü. Səməd də son dərəcə məyus idi. Dostunu kədərli görən Xan dilləndi:

– Əmioğlu, yenə nə olub? Niyə pərişansan?

Səməd Xana yaxınlaşıb, onu bərk qucaqladı. Sonra ətrafdakılara nəzər salıb, bir daha Xanı bağrına basaraq vaxtilə sevdiyi bir qıza yazdığı qəzəlin misralarını gözləri yaşarmış halda əzbərdən dedi.

Çox qəribə, həm də maraqlı idi ki, niyə həmin dəqiqələrdə onun yadına məhz bu qəzəlin kədərli sözləri düşdü.

Dünyada nələr olmur? Doğrudan da, o gün heç kəsin ağlına gəlməzdi ki, bugünkü məclis Xan Şuşinski ilə Səməd Vurğunun son məclisidir. Bir də bu iki nəğməkar görüşməyəcək. Bu hadisədən doqquz ay sonra Səməd Vurğun dünyadan köçdü.

# Kitabxanaların xatirə tədbirləri

Bakı Şəhər Mədəniyyət Baş İdarəsi Yasamal rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin (MKS) Mərkəzi Kitabxanasında "Yubileylər silsiləsi" layihəsi çərçivəsində "Əhməd Cavad Azərbaycan Xalq Cümhuriyyəti dövründə" adlı tədbir keçirib. Tədbir istiqlal şairi Əhməd Cavadın 130 illiyinə həsr olunub.



Tədbirdə kitabxananın əməkdaşları çıxış edərək Əhməd Cavadın həyat və yaradıcılığının ən parlaq dövrünün Cümhuriyyət illərinə təsadüf etdiyini vurğulayıblar. Qeyd olunub ki, həmin dövrdə şair Gəncədə və Bakıda çalışıb, şeirlər yazmaqla bərabər publisistik yaradıcılığını da davam etdirib.

Yasamal rayon MKS-nin 3 nömrəli filialında isə Əhməd Cavadın anadan olmasının 130 illiyi münasibətilə “Məlumat saatı” təşkil edilib. Görkəmli şairin yaradıcılığından söz açılıb, kitabxananın fondunda Ə.Cavadla bağlı nəşrlər haqqında məlumat verilib.

***

Bakı Şəhər Mədəniyyət Baş İdarəsi Sabunçu rayon MKS-nin 2 nömrəli filialı fəal oxucuların iştirakı ilə “Unudulmayan oğullar” adlı tədbir təşkil edib.

Bakı Şəhər Mədəniyyət Baş İdarəsindən bildirilib ki, tədbirdə Vətən uğrunda canından keçən igidlərdən biri – şəhid Nahid Teymurzadə haqqında söhbət açılıb.

Bildirilib ki, Nahid Teymurzadə 1997-ci il iyunun 23-də Biləsuvar rayonunun Günəşli kəndində anadan olub. 2020-ci ilin Vətən müharibəsində könüllü cəbhəyə gedib. Xocavəndin Düdüklü kəndinin azad olunması uğrunda gedən döyüşlərdə şəhadətə yüksəlib. Ölümündən sonra “Vətən uğrunda”, “Cəbrayılın azad olunmasına görə”, “Xocavəndin azad olunmasına görə” və “Füzulinin azad olunmasına görə” medalları ilə təltif olunub.

***

Bakı Şəhər Mədəniyyət Baş İdarəsi Nərimanov rayon MKS-nin Mərkəzi Kitabxanası Azərbaycanın Milli Qəhrəmanı Asif Məhərrəmovun 70 illiyi ilə əlaqədar videoçarx hazırlayıb.



Videoçarxda Milli Qəhrəman haqqında məlumat yer alıb. Qeyd edilib ki, Asif Yusif oğlu Məhərrəmov (Fred Asif) 1952-ci il iyulun 26-da Ağdam şəhərində anadan olub. Birinci Qarabağ müharibəsində Ağdamın kəndlərində düşmənə qarşı özünümüdafiə dəstələri yaradaraq cəsur komandir kimi tanınıb, dəfələrlə yaralanıb. Müharibədə aldığı yaralar nəticəsində 1994-cü il iyulun 1-də dünyasını dəyişib. Bakıdakı İkinci Fəxri xiyabanda dəfn olunub.

# “Mənim də silahım nəğmələr idi”

## Bəstəkar Azad Zahidin 65 illik yubileyi qeyd olunub

Tarix boyu dünya ordularında döyüşçünün fiziki sağlamlığı, iradi keyfiyyətləri, peşəkarlıq qabiliyyəti ilə yanaşı, onun döyüş ruhu, vətənpərvərlik hissi, mənəvi-psixoloji hazırlığının hansı səviyyədə olması da şərtləndirici amillər kimi nəzərə alınıb. İstər döyüşqabağı, istərsə də döyüşlərdə şairlər, aşıqlar zaman-zaman öz xeyir-duaları, söz və ifa etdikləri cəng havaları ilə igidləri düşmən üzərində qələbə çalmağa ruhlandırıb, onların şücaətinə, qəhrəmanlığına dastanlar bağlayıb, şan-şöhrətlərini el-obaya yayıblar.

Hər bir Vətən əsgərində milli ruhun, ləyaqət və Vətən sevgisinin aşılanmasında ədəbiyyat və incəsənət xadimlərinin müstəsna xidmətləri var.

Bu barədə Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində keçirilən “Mənim də silahım nəğmələr idi” adlı vətənpərvərlik tədbirində ətraflı söhbət açılıb, Zəfər nəğmələri və Qələbəyə ruhlandıran şeirlər səsləndirilib.





Azərbaycanın folkloruna nəzər salsaq görərik ki, xalq qəhrəmanlarımız bir əlində qopuz, saz, bir əlində isə qılınc, şeşpər savaş meydanına atılıb. Bəzən hərbə-zorbaları ilə düşməni elə sındırıb ki, qılıncı işə salmağa belə ehtiyac duyulmayıb.

1941-1945-ci illər müharibəsində məşhur “Müqəddəs müharibə” mahnısı (söz: V.Lebedev-Kumaç, musiqi: A.Aleksandrov) milyonları bir bayraq altına toplamadımı?! Xalq şairi Səməd Vurğunun “Bilsin ana torpaq, eşitsin Vətən, Müsəlləh əsgərəm mən də bu gündən!” misraları, Üzeyir Hacıbəylinin, Səid Rüstəmovun musiqi əsərləri, Bülbülün, Xan Şuşinskinin ifa etdikləri mahnılar müharibənin ilk günündən döyüşən ordunu qələbəyə ruhlandırmırdımı?!

Bu gün Azərbaycan Ordusunun döyüş ruhu, vətənpərvərlik hissi yüksəkdir. Ordumuzu tarixi Zəfərə aparan bu hiss, bu duyğu idi. Müzəffər Ali Baş Komandan İlham Əliyev respublikamızın ərazi bütövlüyünün bərpası, tarixi torpaqlarımızın işğaldan azad edilməsi uğrunda döyüşlərdə qazanılan möhtəşəm Qələbədən danışarkən əsgər və zabitlərimizin döyüş ruhunun, vətənpərvərlik hissinin, mənəvi-psixoloji hazırlığının yüksək səviyyədə olduğunu dəfələrlə qeyd edib.

Tədbir klassik musiqimizin korifeyi Qara Qarayevdən dərs almış istedadlı bəstəkar, bu günlərdə (27 iyul) 65 yaşı tamam olan Azad Zahidin yaradıcılığına həsr olunub.

Tədbirdə əvvəlcə ulu öndər Heydər Əliyevin və şəhadətləri ilə tarix yazan Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səslənib.

Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, polkovnik Abdulla Qurbani çıxış edərək bəstəkarın yaradıcılığından söz açıb, Azad Zahidin vətənpərvərlik nəğmələrinin, hərbi marşlar və qəhrəmanlıq balladalarının ordu gənclərinin döyüş ruhunun yüksəldilməsində əhəmiyyətini vurğulayıb.

Qeyd olunub ki, hələ tələbəlik illərindən musiqi yaradıcılığı ilə nəinki respublikamızda, eləcə də sovet musiqiçiləri arasında tanınan Azad Zahid irihəcmli simfonik, vokal əsərlərin, fortepiano və simli kvartet üçün konsertlərin, Bakıda, Moskvada və Dağıstanda yayımlanan 200-dən çox radioverilişin müəllifidir. Bəstəkarın yaradıcılığının əsas istiqamətini vətənpərvərlik mövzusunda musiqi əsərləri təşkil edir. “Xocalı yol gözləyir” rekviyem-kompozisiyası, “Kül altından boy atacaq Xocalı” televiziya tamaşası, “İlhamlı günləri Azərbaycanın”, “Həzilər yetirən Vətən torpağı”, “Azərbaycan əsgəri”, “Biz gəlirik, Qarabağ!”, “Lələtəpə fatehləri”, “Aprel Zəfəri”, “Qəhrəman Tərtərim”, “Bayraqtəpə qartalları”, “Qələbəyə gedən yollar”, “Qalib sərkərdəsi Azərbaycanın”, “Vətən, sənin şəhidlərin”, “Günnüt Zəfəri”, “Horadiz halayı”, “Zəfər nəğməsi”, “Müzəffər Ordumuz” kimi vətənpərvərlik mahnıları, hərbi marşlar və qəhrəmanlıq balladaları həm xalqımız, həm də Ordumuzun şəxsi heyəti tərəfindən sevilir və hər dəfə dövlət tədbirlərində, konsertlərdə, efir və ekranlarda ifa edilərkən böyük maraqla qarşılanır.

Nəzərə çatdırılıb ki, Azad Zahid 20 ildən çoxdur Müdafiə Nazirliyi ilə əməkdaşlıq edir, təmənnasız yazdığı musiqi əsərləri ilə Azərbaycan əsgərinin döyüş ruhunun, Vətən sevgisinin daha da yüksəldilməsi üçün səylərini əsirgəmir.

Tədbirdə Müdafiə Nazirliyi Şəxsi Heyət Baş İdarəsi rəisinin müavini – Kadrlar idarəsinin rəisi, general-mayor Elçin Xəlilov çıxış edərək Azad Zahidi nazirliyin rəhbərliyi adından 65 illik yubileyi münasibətilə təbrik edib. Müdafiə nazirinin əmri ilə bəstəkara “Hərbi əməkdaşlıqda fərqlənməyə görə” Azərbaycan Respublikasının medalı təqdim edilib.

Müdafiə naziri, general-polkovnik Zakir Həsənovun Azərbaycan Ordusunun yaxın dostu, vətənpərvər musiqiçi Azad Zahidə ünvanlanan təbrik məktubu oxunub.

Məktubda qeyd edilir ki, Azad Zahidin gündən-günə tərəqqi edən Vətənimizə, müstəqil dövlətimizə, Müzəffər Ali Baş Komandana, eləcə də qüdrətli Azərbaycan Ordusuna, unudulmaz şəhidlərimizə, mübariz əsgər və qazilərimizə həsr etdiyi musiqi əsərləri hərbi qulluqçularımızın döyüş ruhunun, mənəvi-psixoloji hazırlığının, vətənpərvərlik duyğularının daha da yüksəldilməsində mühüm əhəmiyyət kəsb edir.

Bəstəkar Azad Zahid göstərilən diqqətə görə Ali Baş Komandan İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlığını bildirərək deyib: “Vətən müharibəsində qazanılan Qələbə xalqımızın birliyinin, həmrəyliyinin, dövlətimizin iqtisadi gücünün, ulu öndər Heydər Əliyevin azərbaycançılıq məfkurəsinin, rəşadətli Azərbaycan Ordusunun əsgər və zabitlərinin, qətiyyətli sərkərdəmizin dəmir yumruğunun qələbəsidir. Müharibə başlanan ilk gündən mənim də silahım nəğmələrim oldu. Fəxr edirəm ki, bu möhtəşəm Qələbəyə, az da olsa, mənim də töhfəm olub. Bu, mənim vətəndaşlıq borcumdur. Bundan sonra öz yaradıcılığımla xalqıma, dövlətimə və qalib Azərbaycan Ordusunun igid əsgərlərinə xidmət edəcəyəm”.

Tədbirdə bəstəkarın Abdulla Qurbaninin sözlərinə yazdığı vətənpərvərlik mahnıları ifa edilib. Tamaşaçılar Xalq artisti Gülyaz Məmmədovanın, Əməkdar artistlər Cahangir Qurbanov, Ehtiram Hüseynov və başqalarının çıxışlarını, o cümlədən Azərbaycan Ordusu Sənədli və Tədris Filmləri Mərkəzinin, Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin hazırladıqları videoçarxları maraqla izləyiblər.

Şəhid mayor Toğrul Bərxudarovun həyat yoldaşı Zəhra xanım və oğlu Əli çıxış edərək Azad Zahidin şəhidlərimizin xatirəsinə, qazi və xidmətdə olan qəhrəman döyüşçülərimizin şərəfinə yazdığı əsərləri dinlədikcə həm təsəlli tapdıqlarını, həm də böyük qürur hissi keçirdiklərini bildirib, bəstəkara yeni yaradıcılıq uğurları arzulayıblar.

# Naxçıvan teatrına “Şərq qapısı”ndan baxış

AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutu Musiqi və teatr şöbəsinin müdiri, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Əli Qəhrəmanov və həmin institutun elmi katibi, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Ələkbər Qasımovun birgə müəllifliyi ilə ”Naxçıvan teatrı ”Şərq qapısı” qəzetinin səhifələrində” monoqrafiyası çapdan çıxıb.

Kitabda Naxçıvan teatrı barədə 100 yaşlı “Şərq qapısı” qəzetində dərc olunan xəbər, resenziya, müsahibə, oçerk və məqalələr araşdırmaya cəlb olunub.

Beş fəsildən ibarət monoqrafiyanın birinci fəsli “Muxtar respublikanın teatr həyatı “Şərq qapısı” qəzetinin səhifələrində” adlanır. Bu fəsildə qəzetin 1921-1940-cı illərdə nəşr oulnmuş nömrələrində Naxçıvan teatrına ayrılan hissəyə nəzər yetirilir. “Naxçıvan teatrı və vətənpərvərlik mövzusu “Şərq qapısı” qəzetinin səhifələrində” adlı ikinci fəsil 1941-1945-ci illəri, II Dünya müharibəsi dövrünü əhatə edir.

“Naxçıvan teatrının fəaliyyəti “Şərq qapısı” qəzetinin səhifələrində” adlı üçüncü fəsildə 1946-1968-ci illərdə müharibədən sonra canlanan teatr həyatı, dinc quruculuq illərində teatrın fəaliyyəti barədə materiallar tədqiq olunur.

Nəşrin dördüncü fəsli “Muxtar respublikanın teatr aləmi və “Şərq qapısı” qəzeti (1969-1990)” adlanır. Bu fəsildə “Şərq qapısı” qəzeti səhifələrində teatrda tamaşaya qoyulmuş əsərlər barədə ətraflı məlumat verilir, yeni teatrların – Cavid Poeziya Teatrının yaradılması və fəaliyyəti, Naxçıvan Dövlət Kukla Teatrının əsasının qoyulması, Naxçıvan şəhərində və Ordubad və Şərur rayonlarında xalq teatrlarının fəaliyyətə başlaması kimi məqamlara toxunulur.

Monoqrafiyanın sonuncu – “Müstəqillik illərində Naxçıvanda teatr məsələləri “Şərq qapısı” qəzetinin səhifələrində (1991-2020)” adlı beşinci fəslində teatrda nümayiş olunan tamaşalar, dövlət tərəfindən göstərilən diqqət və qayğı haqqında bəhs olunur.

# “Qafqaz və Monqol imperiyası”

AMEA A.Bakıxanov adına Tarix İnstitutu Elmi şurasının qərarı ilə tarix elmləri doktoru, professor, mərhum alim Vaqif Buduqlu-Piriyevin “Qafqaz və Monqol imperiyası” kitabı nəşr olunub.

Bu barədə Tarix İnstitutundan məlumat verilib. Bildirilib ki, kitabın elmi redaktoru tarix elmləri doktoru, professor Şahin Fərzəliyev, rəyçiləri tarix elmləri doktoru, dosent Vaqif Abışov və tarix üzrə fəlsəfə doktoru İradə Əliyevadır.

Kitabda Monqol imperiyasının Qafqaza yürüşləri dövründə regionun siyasi-iqtisadi, sosial-mədəni vəziyyəti araşdırılır, regional hərbi-siyasi münasibətlər, monqol təcavüzünə qarşı mübarizə tarixi təhlil olunur.

# XX əsrin əvvəlində Şuşada istifadə olunan Humay təsvirli çanta

AMEA-nın Milli Azərbaycan Tarixi Muzeyində Şuşaya məxsus sənət incisi – XX əsrin əvvəllərinə aid Humay təsvirli çanta qorunur.




Keçmiş xanımlar məişətdə əl işi olan zərif aksesuarlardan istifadə ediblər. Onların sırasına çantalar, sürmədan qovluqları, saatqabı, daraqqabı və s. daxildir. Çantalar qədim zamanlarda insanların gündəlik həyatının ayrılmaz tərkib hissəsi olub. Hələ ibtidai insanlar səfərə və ya ova gedərkən lazım olan əşyalarını, yanında gəzdirdikləri, gündəlik tələbat üçün lazım olan hər bir şeyi daşımağın və saxlamağın yollarını tapıblar. Zaman-zaman belə daşıma vasitələri özünün əsl mahiyyətindən daha çox bəzək elementi olan aksesuara çevrilib.

XX əsrin əvvəllərində Şuşada istifadə olunan çanta həm güləbətin tikmə üsulu, həm də keçmiş mifoloji görüşlər haqqında müəyyən təsəvvür yaradır. Çantanın üzərində stilizə olunmuş Humay təsviri var. Humay ana qədim mifoloji dünyagörüşünə əsasən qadın və uşaqların himayəçisi hesab edilirdi.

Tarixi Muzeyinin Etnoqrafiya fondunun zəngin kolleksiyasında gözoxşayan bədii-dekorativ tərtibata malik yun, fil sümüyü, dəri materialdan olan çantalar da qorunub saxlanılır.

# “Əsgərin kitab rəfi”

Bakı Şəhər Mədəniyyət Baş İdarəsi Xəzər rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin Mərkəzi Kitabxanası Müdafiə Nazirliyinin təşkilatçılığı, ”İrəli” İctimai Birliyinin dəstəyi ilə təşkil olunmuş ”Əsgərin kitab rəfi” aksiyasına qoşulub.

İdarədən bildirilib ki, aksiya çərçivəsində kitabxananın hədiyyə fondundan Azərbaycan və rus dillərində 130 adda kitab və jurnal “Əsgərin kitab rəfi”nə hədiyyə olunub.

Mərkəzi Kitabxananın İnformasiya-resurs şöbəsinin müdiri Nilufər Abdulova Müdafiə Nazirliyinin təşəbbüsünü yüksək qiymətləndirib və kitabların əsgərlər üçün faydalı olacağına əminliyini ifadə edib. Kitabları təhvil alan “İrəli” İctimai Birliyinin sədri Arif Rəhimli əsgərlərimiz üçün kitab toplama aksiyasına dəstək olduğu üçün kitabxanaya təşəkkürünü bildirib.

Aksiya çərçivəsində toplanan kitablar işğaldan azad edilmiş ərazilərdə xidmət edən əsgərlərə üstünlük verilməklə bütün hərbi qulluqçularımıza çatdırılacaq.

# Xatirə təqvimi

30 iyul – 4 avqust

## Azərbaycan

**30 iyul 1896** – Xalq artisti Marqarita Matveyevna Annenskaya (1896-1965) Tiflisdə doğulub. 1930-cu ildən Azərbaycan Dövlət Rus Dram Teatrının aktrisası olub.

**30 iyul 1928** – Maarif və mədəniyyət xadimi, teatr təşkilatçısı Həbib bəy Mahmudbəyov (1864–1928) vəfat edib.

**30 iyul 1942** – Tərcüməçi, ədəbiyyatşünas Fərhad Qəmbər oğlu Əliyev (1942-1996) anadan olub.

**31 iyul 1940** – Xalq artisti Vaqif Məzahir oğlu Əliyev (1940 – 13.8.2021) Bakıda doğulub. Sumqayıt Dövlət Dram Teatrı yaranandan (1968) bu teatrın aktyoru olub. 2000-ci ildən Bakı Bələdiyyə Teatrında çalışıb. Filmlərə çəkilib.

**31 iyul 2019** – Əməkdar mədəniyyət işçisi, teatrşünas Kəmalə Məmməq qızı Cəfərzadə (5.8.1950 – 2019) vəfat edib.

**1 avqust 1894** – Bakıda yazıçı, maarifçi Nəriman Nərimanovun təşəbbüsü ilə ilk müsəlman qiraətxanası – ictimai kitabxana fəaliyyətə başlayıb. Kitabxananın təşkilində S.M.Qənizadə, H.Mahmudbəyov, S.Vəlibəyov və başqa ziyalılar iştirak etmişdi. Çar hakim dairələri gənclərin qiraətxanada toplaşmasından ehtiyat edərək, 1898-ci ilin oktyabrında onu “şübhəli siyasət ocağı” kimi bağlatmışdı.

**1 avqust 1896** – Əməkdar incəsənət xadimi, teatr rəssamı və qrafika ustası Həsənağa Hacağa oğlu Mustafayev (1896 – 22.4.1971) anadan olub. Opera və Balet, Musiqili Komediya və b. teatrlarda tamaşalara səhnə tərtibatı verib.

**1 avqust 1908** – Ədəbiyyatşünas, professor Hidayət Əli oğlu Əfəndiyev (1908-1979) Şamaxıda anadan olub.

**1 avqust 1929** – Əməkdar elm xadimi, ədəbiyyatşünas, professor Bağır İbrahimxəlil oğlu Bağırov (1929 – 15.1.2010) anadan olub.

**1 avqust 1934** – Ədəbiyyatşünas alim, professor Xeyrulla Qulam oğlu Məmmədov (1934 – 8.9.2005) Lerik rayonu Zuvand mahalının Hoveri kəndində anadan olub.

**1 avqust 1948** – Əməkdar incəsənət xadimi, kinooperator, rejissor Ələkbər Yunus oğlu Muradov (1948 – 1.8.2013) Bakıda doğulub. Filmləri: “Qaladan tapılan mücrü”, “O dünyadan salam” (operator), “Güllələnmə təxirə salınır” (rejissor) və s.

**1 avqust 1961** – Tanınmış bəstəkar, Əməkdar incəsənət xadimi Qəmbər Muxtar oğlu Hüseynli (16.4.1916 – 1961) vəfat edib.

**1 avqust 1981** – Əməkdar artist Əliheydər (Heydər) Həsənzadə (1913-1981) vəfat edib. Naxçıvan Dövlət Dram, Azərbaycan Dövlət Gənc Tamaşaçılar teatrlarında çalışıb, filmlərdə çəkilib.

**2 avqust 1898** – Bakıda fotoqraf və kinooperator Aleksandr Mişon çəkdiyi bir neçə kinosüjeti nümayiş etdirib. Bu əlamətdar hadisə ilə bağlı Prezident Heydər Əliyev 2000-ci ildə (18 dekabrda) 2 avqustun “Azərbaycan Kinosu Günü” elan olunması haqqında sərəncam imzalayıb.

**2 avqust 1949** – Xalq artisti, tanınmış qarmon ifaçısı Kamil Səfərəli oğlu Vəzirov (1949 – 13.2.2018) Bakıda doğulub. Azərbaycan Dövlət Mahnı Teatrının solisti olub.

**2 avqust 1969** – Milli səhnəmizin ilk azərbaycanlı qadın müğənnilərindən biri, Xalq artisti Həqiqət Əli qızı Rzayeva (20.5.1907 – 1969) vəfat edib.

**2 avqust 1980** – Görkəmli teatr rejissoru, Xalq artisti, Dövlət mükafatı laureatı Tofiq Səməd Mənsur oğlu Kazımov (14.1.1923 – 1980) dünyasını dəyişib. Akademik Milli Dram Teatrında baş rejissor işləyib. Gənc Tamaşaçılar, Rus Dram, Musiqili Komediya teatrlarında tamaşalar hazırlayıb.

**2 avqust 1984** – SSRİ Xalq artisti, görkəmli dirijor və bəstəkar Niyazi (Niyazi Zülfüqar oğlu Hacıbəyov-Tağızadə; 20.8.1912 – 1984) vəfat edib. “Xosrov və Şirin” operası, “Çitra” baleti, “Rast” simfonik muğamı və s. əsərlərin müəllifidir.

**2 avqust 2001** – Nazirlər Kabinetinin qərarı ilə Azərbaycan Respublikası ərazisində dövlət mühafizəsinə götürülmüş daşınmaz tarix və mədəniyyət abidələrinin əhəmiyyət dərəcələrinə görə bölgüsü (dünya, respublika və yerli əhəmiyyətli) təsdiq edilib.

**3 avqust 1933** – Əməkdar incəsənət xadimi, dirijor Ləman Həsən qızı Atakişiyeva (1933-2015) Bakıda anadan olub.

**4 avqust 1915** – Görkəmli aktyor, Xalq artisti Məmmədrza İsa oğlu Şeyxzamanov (1915 – 25.1.1984) Gəncədə doğulub. Gəncə Dram, Akademik Milli Dram teatrlarında çalışıb. “Bir qalanın sirri”, “Qatır Məmməd”, “Nəsimi”, “Əhməd haradadır?”, “Tütək səsi” filmlərində yaddaqalan obrazlar yaradıb.

**4 avqust 1939** – Əməkdar artist Ofeliya Kamal qızı Məmmədzadə (1939 – 11.7.2007) Bakıda anadan olub. Akademik Dram, Musiqili Komediya teatrlarında çalışıb. Filmlərdə (“Bir cənub şəhərində”, “Yenilməz batalyon”), teletamaşalarda maraqlı rollar oynayıb.

**4 avqust 1946** – Xalq artisti Rafiq Eyyub oğlu Hüseynov (1946 – 26.10.2017) Şuşada doğulub. 30 ilə yaxın Azərbaycan Televiziyasının aparıcı diktorlarından biri olub.

## Dünya

**30 iyul 1511** – İtalyan memarı, rəssam və yazıçı Corco Vazari (Giorgio Vasari; 1511-1574) anadan olub.

**30 iyul 1818** – İngilis yazıçısı Emili Bronte (Emily Jane Bronte; 1818-1848) anadan olub. Yazıçı Şarlotta Brontenin bacısıdır. Əsərləri: “Tufan aşırımı”, “Mənim qəlbim qorxaq deyil”.

**31 iyul 1866** – Türk yazıçısı Xalid Ziya Uşaqlıgil (1866 – 27.3.1945) anadan olub. “Aşk-ı-memnu”, “Bir ölünün dəftəri”, “Qırıq həyatlar” və s. romanların müəllifidir.

**31 iyul 1886** – Macar bəstəkarı Ferens List (Liszt Ferenc; 1811-1886) vəfat edib. Məşhur əsərləri: “Faust” simfoniyası, “Macar” rapsodiyası.

**31 iyul 1914** – Fransız (ispan əsilli) aktyoru, rejissor Lui de Fünes (Louis Germain David de Funes de Galarza; 1914-1983) anadan olub. “Böyük gəzinti”, “Jandarm və yadplanetlilər” və s. komediya filmləri ilə məşhurlaşıb.

**1 avqust 1819** – Amerika yazıçısı Herman Melvill (Herman Melville; 1819-1891) anadan olub. Əsərləri: “Mobi Dik” romanı, “Con Marr və digər dənizçilər” hekayələr toplusu və s.

**1 avqust 1923** – SSRİ Xalq artisti, məşhur televiziya aparıcısı Valentina Leontyeva (1923-2007) anadan olub.

**1 avqust 1936** – Dünya şöhrətli fransız modelyeri İv Sen Loran (Yves Henri Donat Mathieu-Saint-Laurent; 1936-2008) anadan olub.

**2 avqust 1834** – Fransız memarı Frederik Ogüst Bartoldi (Frederic Auguste Bartholdi; 1834-1904) anadan olub. ABŞ-ın Nyu-York şəhərindəki “Azadlıq” heykəlinin müəllifidir.

**2 avqust 1892** – Amerikanın “Warner Brothers” kinokorporasiyasının qurucularından olan Cek Leonard Vorner (Jack Leonard Warner; 1892-1978) anadan olub.

**2 avqust 1932** – İrland əsilli ingilis aktyoru Piter O’Tul (Peter Seamus O’Toole; 1932-2013) anadan olub. Filmləri: “Milyonu necə oğurlamalı?”, “Kaliqula”, “Ərəbistanlı Lourens” və s.

**3 avqust 1832** – Xorvat bəstəkarı və dirijoru İvan Zays (1832-1914) anadan olub.

**3 avqust 1994** – Məşhur rus aktyoru, SSRİ Xalq artisti İnnokenti Smoktunovski (1925-1994) vəfat edib. Filmləri: “Hamlet”, “Avtomobildən qorun”, “Cinayət və cəza”, “Ölü canlar” və s.

**4 avqust 1859** – Norveç yazıçısı Knut Hamsun (Pedersen; 1859-1952) anadan olub. “Aclıq” psixoloji romanı yazıçıya şöhrət gətirib. “Torpağın şirəsi” əsərinə görə ədəbiyyat üzrə Nobel mükafatı (1920) alıb.

**4 avqust 1901** – Dünya şöhrətli Amerika caz musiqiçisi, bəstəkar Lui Armstronq (Louis Daniel “Satchmo” Armstrong; 1901-1971) anadan olub.

**4 avqust 1905** – Rus bəstəkarı, SSRİ Xalq artisti Boris Aleksandrov (1905-1994) anadan olub. Keçmiş Sovet İttifaqının Dövlət himninin musiqi müəllifidir.

**Hazırladı: Vüqar Orxan**

№56 (1929)
29 iyul 2022
www.medeniyyet.az

# 70-80-ci illərin estrada ulduzları “açıq hava”da

## Bakıda “Disco gecəsi” adlı konsert keçiriləcək

Sentyabrın 2-də Bakıda, “Sea Breeze” istirahət mərkəzində ötən əsrin 70-80-ci illərinin estrada ulduzlarının iştirakı ilə “Open-air” festivalı çərçivəsində “Disco night” adlı konsert keçiriləcək.

Açıq havada keçiriləcək konsertdə məşhur müğənnilər Thomas Anders, Pupo, eləcə də “Joy”, “Secret Service”, “Boney M”, “Arabesque” qruplarının solistləri kimi estrada musiqisi əfsanələri də iştirak edəcəklər.

Festivalda iştirak edən ifaçıların 60-a yaxın və daha çox yaşı var. Bəziləri artıq aktiv ifaçılıq fəaliyyəti göstərmir. Amma keçmiş şöhrətin izi onların adlarını unutdurmayıb. Onların ifaları hələ də dünya radiostansiyaları tərəfindən və bir çox musiqi festivallarında səsləndirilir.




Konsertin təşkilatçıları “Sea Breeze” istirahət mərkəzi, “JARA events” və digər qurumlardır.

Bu ilin iyulunda eyni məkanda növbəti JARA musiqi festivalı keçirilməli idi, lakin sonradan təxirə salındı. Festivalın təşkilatçısı Emin Ağalarov JARA-nın əvəzinə bu il “Sea Breeze”də silsilə konsertlərin olacağını bildirmişdi.

JARA festivalı Bakıda 2016-2019-cu illərdə keçirilib, 2020-ci ildə pandemiya başlayandan sonra gerçəkləşməyib.

# Kahramanmaraş gələn il “Botanika EXPO”ya ev sahibliyi edəcək



Türkiyənin Kahramanmaraş şəhəri 2023-cü ildə botanika-bağçılıq istiqaməti üzrə ixtisaslaşmış dünya sərgisinə (EXPO) ev sahibliyi edəcək. Dünya sərgisi 23 aprel – 31 oktyabr 2023-cü il tarixlərində Kahramanmaraşın Onikişubat Bələdiyyəsi ərazisində təşkil olunacaq.

1 milyondan çox əhalisi olan Kahramanmaraş şəhərinin mərkəzi ilçəsi (rayonu) olan Onikişubatın adı 1920-ci il fevralın 12-də o vaxt Maraş adlanan şəhərin fransız və erməni işğalından qurtuluş tarixi ilə bağlıdır.

“Təbiət dostu şəhər və həssaslıq” devizi altında təşkil ediləcək sərgi Türkiyədə sayca ikinci “Botanika EXPO”su olacaq. 2016-cı ildə belə bir beynəlxalq sərgi Antalyada keçirilmişdi.

Qeyd edək ki, 1851-ci ildə Londonda əsası qoyulan EXPO sərgiləri, ötən müddətdə elmi-texniki tərəqqinin nümayişi olmaqla yanaşı, xüsusilə son onilliklərdə ev sahibi ölkə və şəhərlər üçün özünü dünyaya tanıtmaq baxımından mühüm fürsətə çevrilib. Hazırda EXPO-ya ev sahibliyi etmək ölkələr üçün Olimpiya Oyunlarını qəbul etmək qədər nüfuzlu hadisə sayılır.

2000-ci ildən başlayaraq əsas EXPO sərgisi beş ildən bir keçirilir. 2020-ci ildə (pandemiya səbəbindən 2021-də gerçəkləşdi) EXPO-ya BƏƏ-nin Dubay şəhəri ev sahibliyi etmişdi. 2025-ci ildə EXPO-nu Bakının da yarışdığı mübarizədən qalib çıxan Osako (Yaponiya) qəbul edəcək.

Beynəlxalq Sərgilər Bürosunun qəbul etdiyi əsas EXPO-dan savayı, ayrı-ayrı illərdə xüsusi EXPO sərgiləri (2023-cü ildə növbəti belə sərgi Buenos-Ayresdə keçiriləcək), həmçinin 1960-cı ildən etibarən Beynəlxalq Bağçılıq İstehsalçıları Assosiasiyasının (International Association of Horticultural Producers – IAHP) təşəbbüsü olan “Botanika EXPO”lar da təşkil edilir.

Türkiyənin Kahramanmaraş şəhərinin ev sahibliyi edəcəyi “EXPO – 2023”ə artıq bu ildən ciddi hazırlıq görülür. Sərgidə təbiətin nadir nemətləri ilə yanaşı, qiymətli əl işləri, sənət əsərləri də nümayiş olunacaq. Onlardan biri 90 illik tarixi kəhrəba təsbehdir. Kolleksiyaçılar tərəfindən ilkin olaraq təsbeh 50 min dollar dəyərində qiymətləndirilib. Təsbehi qiymətli edən onun tək olması və təbii kəhrəbadan hazırlanmasıdır. İstanbulun məşhur ustalarından Bəylərbəyi Qalip Başsakanın əl işi olan kəhrəba təsbeh günümüzə qədər qırılmadan qorunub.

**V.Kamal**

# Yetmiş doqquzuncu dəfə “Qızıl şir” uğrunda yarış

## Venesiya Film Festivalının proqramı açıqlanıb

Avropanın üç ən böyük kino forumundan biri olan Venesiya Film Festivalı bu il 79-cu dəfə keçiriləcək.

Avqustun 31-dən sentyabrın 10-dək davam edəcək festivalın əsas müsabiqə proqramı açıqlanıb.

Bu il bir çox görkəmli rejissorlar yeni filmlərini ilk dəfə Venesiyada tamaşaçılara təqdim edəcəklər. Festival amerikalı aktyorlar Nuh Baumbax, Adam Driver və Greta Gervigin baş rollarda çəkildikləri “Ağ səs-küy” filmi ilə açılacaq.

Bu il Venesiyada “Qızıl şir” heykəlciyi uğrunda Luka Quadaqnino və Timoti Çalameti yenidən bir araya gətirən “Sümüklər və hamısı”, kubalı gənc aktyor Ana de Armasın Merilin Monro obrazını canlandırdığı və Endrü Dominik tərəfindən çəkilmiş “Sarışın”, Darren Aronofski, Alejandro Qonzales İnyarritu və Cəfər Pənahi kimi bir çox usta rejissorların filmləri yarışacaq.

İspaniyalı aktrisa Penelope Kruz festivala iki yeni filmlə qatılacaq. Festivalda onun oynadığı İtaliya istehsalı olan “L’inmensitá” və İspaniyada çəkilən “En los márgenes” filmləri nümayiş olunacaq.




79-cu Venesiya Film Festivalının münsiflər heyətinə amerikalı aktrisa Culian Mur rəhbərlik edəcək.

# Avstriyada turizm pandemiyadan əvvəlki səviyyəyə çatıb



Avstriyada turizm göstəricilərində müsbət irəliləyişlər qeydə alınıb və yay mövsümündə turist gecələmələrinin sayı pandemiyadan əvvəlki səviyyəyə çatıb.

Avstriya Statistika İdarəsinin hesabatına əsasən, may-iyun aylarında ölkə üzrə 19,2 milyon gecələmə qeydə alınıb. Bu isə pandemiyadan öncəki 2019-cu ilin analoji dövr üzrə göstəricisinə (20,1 milyon) yaxındır.

Ən yüksək göstərici (təxminən 12 milyon gecələmə) iyun ayında qeydə alınıb. Bu, ötən ildən 60 faiz çox və 2019-cu ilin iyun göstəricisinə təxminən bərabərdir. Bununla belə, ölkə üzrə turist sayının əksəriyyətini yerli sakinlər təşkil edir.

Qeyd edilib ki, payızda sosial tərəfdaşların zirvə toplantısında turizm sektorunda məşğulluq şəraitinin yaxşılaşdırılması, bu sahənin cəlbediciliyinin daha da artırılması kimi məsələlər müzakirə edilməlidir.

# Yay mövsümünün əsas səyahət istiqamətləri



Portuqaliyanın əsas maliyyə və iqtisadi mərkəzlərindən biri olan Porto şəhəri 2022-ci ilin yay mövsümü üçün səyahətçilər arasında ən populyar istiqamət olaraq seçilib.

Reytinqi “Pinterest” internet portalı səyahətçilər arasında yay mövsümünün istiqamətlərinə dair sorğu əsasında tərtib edib.

Nəticələrə əsasən, son bir neçə ayda turistik səfərlərin ən çox artdığı ilk 10 populyar istiqamət müəyyən edilib. Onluqda Portodan savayı Yunanıstanın Korfu, İtaliyanın Komo gölü, İspaniyanın Mayorka, İbiza və Madrid, Yunanıstanın Mykonos, Türkiyənin İstanbul, Taylandın Phuket, Fransanın Nitsa kimi turizm istiqamətləri yer alıb.

# Son üç əsrin ən iri çəhrayı almazı

## Çəkisi 170 karatdır



Afrikanın cənubunda kəşfiyyat və almaz hasilatı ilə məşğul olan Avstraliyanın “Lucapa Diamond Company” dağ-mədən şirkəti Anqoladakı Lulu şaxtasında xalis çəhrayı almaz tapıldığını elan edib.

Şirkətin məlumatına görə, “Rosa-du-Lulu” adı verilmiş almazın çəkisi 170 karatdır. Bu, son 300 ildə aşkar edilmiş ən iri almazdır.

Anqolanın mineral ehtiyatlar və neft naziri Diamantinu Azevedo bəyan edib ki, rekord ölçülü bu çəhrayı almazın aşkar edilməsi Anqolanın dünya əhəmiyyətli almaz hasilatı mərkəzi olduğunu təsdiq edir. “Rosa-du-Lulu” beynəlxalq hərracda satılacaq. Hələlik qiymət qoyulmayıb.

2017-ci ildə çəkisi 59,6 karat olan “Çəhrayı ulduz” brilyantı Honkonq hərracında 71,2 milyon ABŞ dollarına satılıb. “Çəhrayı ulduz” indiyə qədər tarixdə ən bahalı brilyant kimi qalır.

# “Eurasiya.DOC” sənədli filmlər festivalı keçiriləcək




Oktyabrın 3-dən 7-dək Belarusun Minsk və Rusiyanın Smolensk şəhərlərində MDB ölkələrinin 7-ci “Eurasia.DOC” sənədli filmlər festivalı keçiriləcək.

Festivalda iştirak etmək üçün müraciətlər avqustun 1-dək qəbul edilir. Filmlər MP4 formatında qəbul olunur.

“Eurasia.DOC” MDB ölkələri üzrə ən böyük sənədli film festivallarından sayılır. Filmlərin seçilməsində əsas meyar MDB ölkələrinin ictimai-siyasi həyatına birbaşa və ya dolayısı ilə təsir edən hadisələrin işıqlandırılması və müəllif tərəfindən şərh edilməsidir.

Əlavə suallar üçün festivalın info@eurasia.film elektron ünvanı ilə əlaqə saxlamaq olar.

Xronoqraf

# Tarixdə bu gün

## Zamanın səhifələrində qalan olaylar, faktlar...

### 299 il əvvəl...

**28 iyul 1723-cü ildə** Çar I Pyotrun göndərdiyi rus qoşunları Bakını işğal edib. Bakı hakimi Məhəmmədhüseyn bəy sürgünə göndərilib. Bu, Rusiyanın Azərbaycan üzərinə birinci işğalçılıq yürüşü idi. 1735-ci ildə ruslar Səfəvi dövləti ilə bağlanmış müqavilənin şərtlərinə görə, Azərbaycan torpaqlarını tərk etdilər. Rusiya imperiyasının Azərbaycan üzərinə ikinci və həlledici yürüşü XIX əsrin əvvəlində başlandı.

### 201 il əvvəl...

**28 iyul 1821-ci ildə** Cənubi Amerikada İspaniya müstəmləkəçiliyinə qarşı davam edən mübarizədə Peru dövlət müstəqilliyini elan edib. Peru XVI əsrdə İspaniyanın müstəmləkəsinə çevrilmişdi.

### 108 il əvvəl...



**28 iyul 1914-cü ildə** I Dünya müharibəsi (1914-1918) başlanıb. “Antanta bloku” (Rusiya, Fransa, Böyük Britaniya) və “Dördlər ittifaqı” (Almaniya, Avstriya-Macarıstan, Osmanlı, Bolqarıstan) arasında müharibə Avstriya-Macarıstanın Serbiyaya savaş elan etməsi ilə alovlanıb. 1 avqustda Serbiyanın müdafiəçisi kimi Rusiya müharibə qoşulub. Ardınca Almaniya, avqustun 3-də Fransa, 4-də Britaniya, sonra Osmanlı dövləti müharibəyə qatılıb. Dörd il (11 noyabr 1918-ci ilədək) sürən müharibədə ümumilikdə 38 dövlət iştirak etmiş,12 milyondan çox insan həlak olmuşdu. Müharibə nəticəsində dörd imperiya (çar Rusiyası, Osmanlı, Avstriya-Macarıstan, kayzer Almaniyası) süqut etdi.

### 104 il əvvəl...

**30 iyul 1918-ci ildə** Xalq Cümhuriyyəti Nazirlər Şurasının qərarı ilə çar Rusiyası işğalından (1805) sonra Gəncə şəhərinə verilmiş Yelizavetpol adı ləğv olunub, şəhərin tarixi adı bərpa edilib. 1935-ci ildə Gəncənin adı yenidən dəyişdirilib və sovet liderlərindən olan Sergey Kirovun adı ilə Kirovabad adlandırılıb. 1989-cu ildə təkrar tarixi adı özünə qaytarıldı.

### 84 il əvvəl...



**29 iyul 1938-ci ildə** Yaponiya qoşunlarının Xasan gölü ətrafında (Koreya ilə sərhəd) SSRİ ərazisinə müdaxiləsi ilə hərbi toqquşmalar başlanıb. Avqustun 18-də yaponlar tutduqları ərazilərdən çıxarıldı. Döyüşlərdə nə qədər sovet döyüşçüsünün həlak olduğu açıqlanmasa da, 6 mindən çox hərbçiyə orden və medallar verilmişdi.

### 40 il əvvəl...

**29 iyul 1982-ci ildə** Şuşa şəhərində görkəmli şairə Xudşidbanu Natəvanın abidəsinin (heykəltəraş – Həyat Abdullayeva) açılışı keçirilib. Mərasimdə respublikanın rəhbəri – Azərbaycan KP MK-nın Birinci katibi Heydər Əliyev iştirak edib.

### 33 il əvvəl...

**29 iyul 1989-cu ildə** Azərbaycandan Ermənistana gedən dəmiryolu xətti Ermənistan ərazisində qatarlara edilən hücumlar nəticəsində bağlanıb. Azərbaycanın Naxçıvan Muxtar Respublikasının Ermənistan tərəfindən blokadaya alınması başlanıb. Bundan sonra Bakı-Naxçıvan dəmiryolu xətti qeyri-müntəzəm olaraq, uzun fasilələrlə fəaliyyət göstərib. 1991-ci ilin payızında dəmiryolu xətti tamamilə kəsilib.

### 32 il əvvəl...

**31 iyul 1990-cı ildə** Yuqoslaviya federasiyasının subyekti olan Bosniya-Herseqovina müstəqilliyini elan edib. 6 respublikanı birləşdirən Yuqoslaviyanın dağılması ağır müharibə ilə müşayiət olundu. Ən qanlı savaş üç etnik qrupun – müsəlman bosniyalılar, katolik xorvatlar və pravoslav serblərin yaşadığı Bosniya-Herseqovinada baş verdi. 1995-ci ildə ABŞ-ın səyləri ilə tərəflər arasında sülhü təmin edən sənəd (“Deyton sülhü”) imzalandı.

### 31 il əvvəl...

**31 iyul 1991-ci ildə** erməni terrorçu qrupu Azərbaycana qarşı növbəti qanlı aksiya həyata keçirib. Moskva-Bakı marşrutu üzrə hərəkət edən sərnişin qatarının Dağıstanın Temirtau stansiyası yaxınlığında partladılması nəticəsində 16 nəfər həlak olmuş, 20 nəfər yaralanmışdı.

### 29 il əvvəl...

**29 iyul 1993-cü ildə** BMT-nin Təhlükəsizlik Şurası Ermənistan-Azərbaycan münaqişəsinin genişlənməsi və erməni silahlı qüvvələri tərəfindən Ağdam rayonunun işğalı ilə bağlı 853 saylı qətnamə qəbul edib. Qətnamədə erməni silahlı qüvvələrinin Ağdamdan və Azərbaycanın daha öncə işğal olunmuş bütün ərazilərindən çıxarılması tələb olunurdu. Bundan öncəki 822 saylı (Kəlbəcər) və sonrakı 874, 884 saylı qətnamələr kimi bu sənədin də müddəaları kağız üzərində qaldı. Azərbaycan 2020-ci ilin 44 günlük müharibəsində BMT qətnamələrinin icrasını öz gücü ilə təmin etdi.

**Hazırladı: V.Orxan**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
MƏDƏNİYYƏT
Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79; 530-34-38 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

“Mədəniyyət” qəzetinin kompüter mərkəzində səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.
**Tiraj:** 5072. **Sifariş:** 2133
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641